Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# İstiqlal mücadiləmizin parlaq siması
# Məhəmməd Əmin Rəsulzadə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait.

Bakı - 2024

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**İstiqlal mücadiləmizin parlaq siması - Məhəmməd Əmin Rəsulzadənin** 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2024. – 78 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

**Sərəncam**

Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

30 dekabr 2023, 16:39

2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Giriş

Milli istiqlaliyyətimiz uğrunda apardığımız mübarizənin ayrı - ayrı məqamlarında vətən torpağımız zaman - zaman igidlərimizin qanları ilə suvarılsa da, ruhumuzda olan azadlıq eşqini düşmən məhv edə bilməyib. Bu gün Azərbaycan Demokratik Respublikasının yaranmasını əsl milli tarixi bayram kimi təntənəli şəkildə qeyd olunması da məhz bu əzmin və azadlıq idealından dönməzliyin nəticəsidir. İstiqlal günümüzün 28 mayın birinci ildönümü 1919 - cu ildə böyük təntənə və ruh yüksəkliyi qeyd olunub.

Əlbəttə, ilk vaxtlar milli istiqlaliyyətimizi, bunun mümkünlüyünü hamı eyni cür dərk və qəbul edə bilmir, bir qism adamlar çaşqınlıq içərisində çırpınırdı. Lakin bu yolda qazanılan nailiyyətlər xalqın həyata və azad günə olan inam və eşqini son dərəcə möhkəmlətdi. Bu özünü milli istiqlal gününün xalq tərəfindən necə böyük ruh yüksəkliyi ilə keçirilməsində də göstərirdi.

Bütün bu tarixi həqiqətlər belə bir fikrə haqq qazandırır ki, “ Mayın 28 - də istiqlal bayramını bu səmimiyyətlə qarşılamaları ilə azərbaycanlılar bütün aləmə necə mərd bir xalq olduqlarını göstərdilər.

Bəzən haqq uğrunda mübarizə aparanlar yorulur, ya da ümidsizliyə qapılıb kənara çəkilirlər. Bəzən də onlar çətin seçim qarşısında qalırlar: “Ya ailən, ya da məhrumiyyətlər! Elə əzizlərinin acizanə baxışlarına özünü təslim edənlər də olur, onları itirmək bahasına olsa belə, ikinci yolu seçənlər də...

Bəli, adətən ömrünü haqq işinə fəda edən insanın təkcə özünü yox, əzizlərini də təhlükələrdən qorumaq üçün bu yoldan dönməsinə çalışırıq. Ancaq, eyni zamanda, tarixdə özünü və ailəsini haqq işinə qurban verənləri də təqdir edir, məhz belə şəxsiyyətlərin sayəsində millətin yaşadığını,

deməli, bu gün hər birimizin həmin insanlara borclu olduğunu da etiraf edirik...

Elə, ötən əsrin əvvəllərində gənc yaşlarından haqq uğrunda mübarizəyə qoşulan, sonadək bu yoldan dönməyən və əzizlərini məhrumiyyətlərə məruz qoyan Məhəmməd Əmin Rəsulzadə kimi. O, özünü və doğmalarını fəda etməyi bacardı...

Tarix zaman - zaman şəxsiyyətlər yetişdirir. Hər bir xalqın yetişdirdiyi şəxsiyyətlərə isə əsl qiyməti tarix özü verir. Məmməd Əmin Rəsulzadə Azərbaycan xalqının son iki əsrdə yetişdirdiyi tarixi şəxsiyyətlərdəndir.

M. Ə. Rəsulzadə Azərbaycanın məşhur dövlət xadimi, Azərbaycan Milli Musavat Xalq Partiyasının lideri, görkəmli publisist –jurnalist, şair, dramaturq ədəbiyyatşünası idi. Ölkəmizin incəsənəti və mədəniyyəti, ədəbiyyatı və tarixi, ictimai fikri, ana dili haqqında zəngin irsi vardır.

Biz bu gün bu metodik vəsaiti hazırlamağı özümüzə borc bildik. Bu metodik vəsait Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi münasibətilə hazırlanmışdır. Vəsait iki hissədən ibarətdir. I hissə M. Ə. Rəsulzadənin həyat və yaradıcılığından, II hissə isə yubiley tədbirlərinin keçirilməsindən bəhs edir.

**İstiqlal carçısı Məhəmməd Əmin Rəsulzadə**



Haqqında söhbət açdığımız şəxs xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadədir.

M. Ə. Rəsulzadə zamanın, məkanın şərtlərində sıxılıb qalmadan xalqına aid dəyərləri yaşatma yolunda əli çatdığı, ünü yetdiyi hər vasitədən faydalanan və elə bu fədakarlıqları sayəsində də bu gün qürurla xatırladığımız şəxsiyyətlərdəndir.

Tarix zaman - zaman şəxsiyyətlər yetişdirir. Hər bir xalqın yetişdirdiyi şəxsiyyətlərə isə əsl qiyməti tarix özü verir. Məhəmməd Əmin Rəsulzadə ilk respublika üsul-idarəsi olan Azərbaybaycan Demokratik Respublikasının təməl daşını quran, sonralar ömür yolu, həyatı zəngin və keşməkeşli hadisələrlə dolu bir dastana çevrilən, xalqımızın ölümsüz liderlərindəndir.

Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Din xadimi olan atası oğlunu məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci "Rus-müsəlman" məktəbinə qoymuş, buranı bitirdikdən sonra M.Ə.Rəsulzadə öz təhsilini Bakı texniki məktəbində, rus dilində davam etdirmişdir. Azərbaycan milli istiqlal hərəkatının və təkcə türk ellərində deyil, bütün islam aləmində ilk respublika üsul-idarəsi olan Azərbaycan Demokratik Respublikasının təməl

daşını qoyan Məhəmməd Əmin Rəsulzadənin inqilabi fəaliyyətinin ilk illəri də məhz bu dövrə təsadüf edir.

1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman gənclik təşkilatı"nı yaratmışdır. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

## Siyasi fəaliyyəti

"Müsəlman demokratik "Müsavat" cəmiyyəti" adı ilə gizli fəaliyyət göstərən təşkilatın bir qolu da az sonra İranda qurulmuş və burada başlamış məşrutə inqilabına istiqamət verici rəhbər qüvvəyə çevrilmişdir. 1904-cü ilin axırlarında "Müsəlman demokratik "Müsavat" cəmiyyəti"nin əsasında RSDFP-nin Bakı komitəsinin nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı" yaradılmışdır. Bu təşkilatın baniləri Mir Həsən Mövsümov, Məmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadə olmuşlar. Məşədi Əzizbəyov, Nəriman Nərimanov, S.M.Əfəndiyev və başqa inqilabçılar da 1905-ci ildən bu təşkilatın üzvü idilər. Təşkilatın "Hümmət" adlı qəzeti də nəşr edilmiş, 1904-1905-ci illər arası cəmi 6 nömrə Qəzet öz nəşrini dayandırdıqdan sonra 1906-cı ilin dekabrından "Təkamül" adı ilə çıxır. Həmin illərdə Bakı neft mədənlərində və Azərbaycanın qəzalarına ana dilində inqilabi qəzet və intibahnamələrin göndərilməsi bilavasitə M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. Buraxılmış qəzetin əsas naşirlərindən biri də M.Ə.Rəsulzadə olmuşdur. 1908-ci ilin axırında M.Ə. Rəsulzadə çar üsul-idarəsi tərəfindən onun həbs olunması təhlükəsi ilə əlaqədar olaraq Bakını tərk edərək İrana yola düşür. M. Ə. Rəsulzadə Təbrizdə xalqımızın milli qəhrəmanı Səttarxanla və onun silahdaşları ilə

görüşür. Cənubi Azərbaycanın şəhər və kəndlərini gəzir, öz doğma xalqının acınacaqlı vəziyyətini yaxından müşahidə edir. Bu müşahidələr sonralar M.Ə.Rəsulzadənin ədəbi yaradıcılığında təsirsiz qalmır. Məhəmməd Əmin Rəsulzadə Avropa təhsili görmüş bir qrup İran ziyalısı (Seyid Həsən Tağızadə, Hüseynqulu xan Nəvvab, Süleyman Mirzə, Seyid Məhəmməd Rza və b.) ilə birlikdə 1910-cu ilin sentyabr ayında İran demokrat partiyasının əsasını qoyur. O, "İrane Nou" və "İrane Ahat" qəzetlərinin baş redaktoru olur. 1909-cu il avqustun 24-də fəaliyyətə başlayan gündəlik və müstəqil "İrane Nou" 2-3 min nüsxə ilə İranın ən böyük qəzeti oldu. 1910-cu ilin yayında bağlansa da, payızda, oktyabrın 26-da artıq Demokrat partiyanın orqanı kimi fəaliyyətini bərpa etdi. Həmin qəzetlərdə M.Ə.Rəsulzadənin çoxlu məqalələri, şeir və publisistik yazıları çap olunmuşdur. O, öz qələmi ilə İranda Avropa tipli jurnalist sənətinin əsasını qoymuşdur.

Sonralar Seyid Həsən Tağızadə, M.Ə.Rəsulzadənin xatirəsinə həsr etdiyi nekroloqda yazacaq: "Modern Avropa qəzet formasını ilk dəfə İrana gətirən M.Ə.Rəsulzadə olmuşdur". İranda həmin il mürtəce "Etidaliyyun" ("Mötədillər") partiyası təşkil edildi. Bununla əlaqədar M.Ə.Rəsulzadə Tehranda 1910-cu ildə fars dilində "Tənqidi-firqeyi-etidaliyyun" adlı kitabını çap etdirmişdir. 1911-ci ildə isə Ərdəbildə müəllifin farsca "Səadəti-bəşər" adlı kitabı nəşr olunmuşdur.






Çar hökuməti İrandakı inqilabi hərəkatdan qorxuya düşərək onun əsas rəhbərlərindən biri olan M.Ə.Rəsulzadənin ölkədən çıxarılmasını İranın şah hökumətindən tələb edir. M.Ə.Rəsulzadə təqiblərdən yaxa qurtarmaq üçün 1911-ci ilin may ayında İstanbula gedir. O, Türkiyə paytaxtında həmyerliləri Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayevlə görüşmüş,Yusifbəy Ağçura oğlu, Ziya Göyalp və başqa görkəmli alimlərlə yaxınlıq etmişdir. M.Ə.Rəsulzadə "Gənc türklər" təşkilatına rəğbət bəsləmiş, "Türk ocağı" cəmiyyətində çalışmış və onun əsas orqanı olan, 1911-ci ilin noyabr ayından nəşrə başlayan "Türk yurdu" jurnalının fəal yazarlarından biri olmuşdur.


AZERBAYCAN


ODLU YURT

Milli Azerbaycan fikriyatını tervic eden aylık mecmua

Başmuharriri M. E. Resul-zade

27 Nisan 1929

Odlu-Yurdun tesiyeti

*Məhəmməd Əmin Rəsulzadənin Türkiyədə nəşr etdirdiyi Azərbaycan, Odlu yurd qəzeti*

Türkiyədə Rəsulzadə hələ İstanbulda onun göstərişi ilə 1911-ci ilin oktyabrında keçmiş hümmətçilər Tağı

Nağıyev və Abbasqulu Kazımzadə tərəfindən əsası qoyulan "Müsəlman demokratik Müsavat partiyasına" daxil olmuş və tezliklə onun rəhbərinə çevrilmişdir. Bu illərdə M.Ə.Rəsulzadə ədəbi-publisistik fəaliyyətini də davam etdirir.

**M.Ə.Rəsulzadənin Bakıya qayıdışı**

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar ümumi əfv elan olunur və M.Ə.Rəsulzadə vətənə qayıda bilir.

1917-ci ildə fevral burjua inqilabı baş verdi. Həmin ilin martında açıq fəaliyyətə başlamış "Müsavat" partiyasının orqanı "Açıq söz" qəzeti yazırdı:

"Şimdiyə qədər qayəmiz, amalımız məlum olmayan, hüriyyət nədir, təşkilat nədir bilməyən və ümumi millətimizə dəstur olacaq milli və siyasi proqramımız bulunmayan, bulunsa da mindən birimizin belə xəbəri olmayan biz türklər müdhiş inqilab tufanları içərisində kompassız ortada qaldığımızdan hara gedib çırpınmağa, hansı tərəfə vurnuxmağı bilməyib, cəmiyyətlərimiz də divanələr dəstəsi kimi boğaz-boğaza gəlmişik".

1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağırıldı. Qurultay M.Ə.Rəsulzadənin təklifi ilə Rusiyanı federativ şəkildə təşkil etmək haqqında qərar çıxardı. Bu qurultayda "Azərbaycan qayəsi" məsələsi yenidən ortalığa atıldı. Həmin ilin mayında maarifpərvər Azərbaycan varlılarından Şəmsi Əsədullayevin Moskva müsəlman xeyriyyə cəmiyyətinə bağışladığı əzəmətli binada Rusiya müsəlmanlarının qurultayı açıldı. M.Ə.Rəsulzadə Rusiyanı federativ şəkildə qurmaq haqqında məruzə ilə çıxış etdi. Qurultay səs çoxluğu ilə M.Ə.Rəsulzadənin "Türk-tatarlığı, Türküstan, Qazaxıstan, Başqırdıstan və

Azərbaycan-Dağıstan kimi bir neçə muxtariyyətlərdən ibarət olacaq gələcək Rusiyanı federativ şəkildə qurmaq" barəsində təklifini qəbul etdi.

Bu dövrdə M.Ə.Rəsulzadə özünün "Cəmaət idarəsi" və "Bizə hansı hökümət faydalıdır?" kitablarını çap etdirmiş, onun Moskva müsəlman qurulutayında etdiyi məruzə Əhməd Salikovun çıxışı ilə birlikdə "Şəkli idarə haqqında iki baxış" adı altında çap olunmuşdur.

May ayında M.Ə.Rəsulzadənin redaktorluğu ilə "Qardaş köməyi" jurnalı çap olundu, ancaq jurnalın bircə nömrəsi çıxdı. 1917-ci il iyunun ikinci yarısında "Müsəlman demokratik Müsavat partiyası" ilə "Türk Ədəm Mərkəziyyət partiyası" birləşib, "Türk Ədəm Mərkəziyyət partiyası "Müsavat" adı altında çıxış etməyə başladı. Onun şöbələri nəinki Azərbaycanın bütün qəzalarında və hətta Rusiyanın Həştərxan, Stavropol şəhərlərində, Ukraynanın, G ürcüstanın və Ermənistanın paytaxtlarında, Türküstanın mərkəzi Daşkənddə, Cənubi Azərbaycanın mərkəzi Təbrizdə, İranın Gilan vilayətinin mərkəzi Rəştdə və Türkiyənin paytaxtı İstanbulda təşkil olundu.

1917-ci il oktayabrın 26-dan 31-ə qədər 500 nümayəndənin iştirakı ilə Bakıda təntənəli surətdə keçirilən Müsavatın birinci qurulutayında Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçilmişdir. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında "Azərbaycana muxtariyyət" şüarı altında milli hərəkat başlandı. Həmin dövr tarixə Milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur.

## Azərbaycan Demokratik Respublikası

1917-ci ilin payızında M.Ə.Rəsulzadə Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilmişdir. 1918-ci il mayın 26-da Zaqafqaziya seymi daxili fraksiyaların çəkişmələri nəticəsində ləğv olundu. Həmin ayın 27-də seymin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan milli şürası yarandı. Səs çoxluğu ilə M.Ə.Rəsulzadə milli şüranın sədri seçildi. 1918-ci il mayın 28-də bütün ölkələrin radio stansiyaları və qəzetləri Azərbaycan istiqlaliyyətinin elan olunmasını dünyaya yaydılar. Bu o demək idi ki, Azərbaycan xalqı öz varlığını, bir xalq kimi mövcudluğunu bütün bəşəriyyətə çatdırır və milli dövlətinin qurduğunu tam şəkildə bəyan edirdi.

Fətəlixan İsgəndər oğlu Xoyskinin başçılığı ilə Azərbaycan Demokratik Respublikası hökuməti təşkil olundu. Beləliklə, Azərbaycan xalqı nəinki türk xalqları arasında, həmçinin, bütün islam şərqi aləmində ilk dəfə olaraq respublika qurdu. İyunun 17-də Azərbaycan milli şürasının iclasında M.Ə.Rəsulzadə öz alovlu nitqində deyirdi:

"Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə yeni doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir. Bu yeni türk nüzad siyasəti rişə və buluğ bulub da millətlər zümrəsinə vəsail-həyat olaraq girə biləcək, yoxsa sısqa çocuq kimi südəmər halında tərki-həyat edəcəkdir? İştə bütün zehinləri işğal edən bir məsələ! İştə bir zaman ki, müqəddərat milliliyi əllərinə alanlar üçün Azərbaycan nüzadini tələf etdirməmək kimi müşkül, fəqət müşküllüyü ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor".

M.Ə.Rəsulzadə özünün bu alovlu nitqində hələ birinci dünya müharibəsi ərəfəsində "Dirilik" jurnalı səhifələrində qaldırdığı və sonralar 1917-ci ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında yenidən ortalığa atılan "Azərbaycan qayəsindən" söhbət açır.

Təəssüf ki, bir sıra görkəmli inqilabçıların əsərlərində 1918-ci il mayın 28-nə kimi, yəni Azərbaycan istiqlaliyyəti elan olunana qədər, bu torpağın Azərbaycan adlandırılması barədə, bu xalqın Azərbaycan xalqı olduğu barədə bir kəlmə də yoxdur. Azərbaycan xalqı qarşısında ancaq müstəmləkədən azad olub, öz müstəqil milli dövlətini yaratmaq məsələsi dayanırdı ki, edilən bütün ədalətsizliklər sona bitsin.



Rəsulzadənin Türkiyədə çıxardığı Kurtuluş dərgisi


İSTİKLAL

Günün en büyük ve en mukaddes vazifesi

1918 28 MAYIS 1933

Vatansever bütün Azerbaycanlılara


İnsanlara Hürriyet, Milletlere İstiklâl!

KURTULUŞ

AYLIK MECMUA

Sayı 1

„Die Befreiung"

„La Délivrance"

Məhəmməd Əmin Rəsulzadə yoldaşları ilə



Bu çətin vəzifəni M.Ə.Rəsulzadənin rəhbərliyi altında qabaqcıl Azərbaycan ziyalıları o dövrdə öz üzərlərinə götürdülər. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışında M.Ə.Rəsulzadə demişdir:

"Biz o zaman, bizim üçün ən yaxşı məsələni – Azərbaycan muxtariyyətini müdafiə edirdik, biz onda sağ və sol tərəfdən amansız tənqidə məruz qalmışdıq. Sağdan bizə deyirdilər ki, azərbaycanlılıq şüarı ilə siz müsəlmanları parçalayırsınız, türkçülük bayrağı qaldırmaqla – Allah yıxsın – siz İslamın əsasını sarsıdırsınız. Soldan isə bizi məzəmmət edirdilər ki, Azərbaycan muxtariyyətini tələb edərək biz vahid demokratik cəbhəni yarırıq. Buna baxmayaraq "Müsavat" partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır."

Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir.

Bakı Dövlət Universitetinin yaranması da M.Ə. Rəsulzadənin adı ilə bağlıdır.

M.Ə.Rəsulzadə bu məsələ ətrafında o, bir neçə dəfə Azərbaycan Parlamentində çıxış etmiş və universitetin açılmasını qəti tələb etmişdir. Universitetin ilk rektoru olmuş professor V.İ.Razumovski 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" adlı xatirə oçerkində yazır:

"M.Ə.Rəsulzadənin sayəsində, onun gücü, maarifçilik köməyi ilə "Müsavat" partiyasında universitetin açıq və gizli düşmənləri partiyanın qərarına tabe olmağa məcbur olmuşlar. Biz öz tərəfimizdə artıq iki partiyaya malik idik. "Müsavat" və sosialistlər, bu da parlamentdə çoxluğu təmin edirdi".

1920-ci ilin mart ayında Bakıda rus dilində çapdan çıxmış, "1920-ci il üçün Azərbaycan Respublikasının

təqvim-ünvanında" qeyd edilib ki, M.Ə.Rəsulzadə BDU-nun Tarixi-filologiya fakültəsində "Osmanlı ədəbiyyatı tarixindən" dərs demişdir.

Azərbaycan istiqlalının ildönümü ilə əlaqədar olaraq 1919-cu ildə Bakıda bircə nömrəsi çap olunmuş, lakin geniş oxucu kütləsinə çatdırılmamış "İstiqlal" jurnalında M.Ə.Rəsulzadənin "Azərbaycan Respublikası" adlı əsəri işıq üzü görmüşdür. M.Ə.Rəsulzadə ədəbi yaradıcılığa da bu illərdə başlamış, "Müxəmməs" adlı ilk əsəri "Şərqi Rus" qəzetində çap olunmuşdur. M.Ə.Rəsulzadənin, Əli bəy Hüseynzadənin redaktor olduğu Fyuzat, həmçinin Əhməd bəy Ağayevin redaktorluğu ilə çıxan "İrşad" və "Tərəqqi" qəzetlərində müxtəlif mövzularda məqalələri və şeirləri çap olunmuşdur. Müəyyən müddət o "İrşad" qəzetinin müvəqqəti redaktoru da olmuşdur.

1907-ci ildə çapdan çıxmış gələcəyin böyük bəstəkarı Üzeyir Hacıbəyovun "Türk-rus və rus-türk lüğəti" kitabının naşiri M.Ə.Rəsulzadə olmuşdur. Yenə də həmin ildə o, A.Blyumun "Fəhlə sinfinə hansı azadlıq lazımdır (Xalq nümayəndəliyi haqqında)" kitabını Azərbaycan dilinə təcümə edib və "Təkamül" qəzeti redaksiyası adından Orucov qardaşlarının mətbəəsində çap etdirmişdir.

**1908-ci il dekabrın 5-də Məhəmməd Əminin "Qaranlıqda işıqlar" pyesi tamaşaya qoyuldu.** Pyesin ana xəttini milli oyanış və istiqlal hərəkatının təbliği təşkil edirdi. O, özünün bu əsəri ilə "Azərbaycana muxtariyyət" şüarı fikrini yaymağa başlamışdır. Onun bu pyesi Azərbaycanda milli-istiqlal hərəkatı ilə tam bağlı olan ilk dram əsəridir. Bu əsərdən başqa M.Ə.Rəsulzadənin həmin ildə yazdığı **"Nagəhan bəla"** adlı pyesi də vardır.

M.Ə.Rəsulzadə Türkiyədə olarkən "Yeni lisançılar və türkçülər" məqaləsini, Təbriz həyatından bəhs edən "Bir

xan" adlı kiçik hekayəsini, "Dil – ictimai bir əməldir" yazısını "Şəlalə" jurnalında çap etdirir. Sonuncu məqalədə o, Azərbaycan türkcəsini göz bəbəyi kimi qorumağı xalqının qarşısında ən mühüm problem kimi qaldırır.

Bundan başqa, o proletar ədibi M.Qorkinin "Ana" əsərindən bir parçanı Azərbaycan dilinə çevirib çap etdirir. Bu tərçümənin o illərdə Azərbaycan ədəbiyyatına müəyyən təsirini də inkar etmək olmaz. 1914-cü il sentyabrın 16-da şair, yazıçı və jurnalist Əlabbas Müznibin redaktorluğu ilə ayda iki dəfə nəşr edilən ədəbi-ictimai, iqtisadi, tarixi və siyasi jurnal olan "Dirilik"-in birinci nömrəsi çapdan çıxdı.

M.Ə.Rəsulzadənin "Dirilik nədir?" adlı baş məqaləsi jurnalın ideya istiqamətini müəyyənləşdirirdi və xalqımızı milli oyanışa çağırırdı. O, bu jurnalın səhifələrində çap etdirdiyi "Milli dirilik" başlığı altındakı baş məqalələrdə "Azərbaycan qayəsini" yayırdı.

Mirzə Davud Hüseynov 1927-ci ildə Tiflisdə, rus dilində çap olunmuş ""Müsavat" partiyası keçmişdə və bu gün" adlı kitabında yazır ki, guya "1917-ci ilə qədər Rəsulzadə üçün Qafqazın tərkibində Azərbaycanın mövcud olması ideyası yox idi. Azərbaycan adı altında o vaxt ancaq İran Azərbaycanı başa düşülürdü". By fikir özü-özülüyündə yanlış idi. Çünki Rəsulzadə 1911-ci ildə İstanbulda "Türk yurdu" jurnalında çap etdirdiyi "İran türkləri" məqaləsində Azərbaycan anlayışının həmçinin Qafqaz hissəsinə də aid olmasını qeyd etmişdir.

Onun "MAR", "MAR-zadə", "M.R-zadə" "Haman", "Sosialist" və s. kimi gizli imzalarla xeyli məqalələri müxtəlif dövrü mətbuatın səhifələrində çap olunmuşdur.

1922-ci ildə Petroqraddan Finlandiyaya gedən Rəsulzadə, qərbi Avropaya, oradan da Türkiyəyə gəlir.

1923-ci ildə İstanbulda M.Ə.Rəsulzadənin "Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti" kitabı çap edilir. "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik" kitabları çap edilir. 1923-27-ci illərdə onun redaktorluğu ilə İstanbulda "Yeni Qafqasya" jurnalı nəşrə başlayır, ancaq Moskvanın tələbi ilə hökümət jurnalı bağlayır və Rəsulzadə Avropaya getməyə məcbur olur, Varşava və Berlində yaşayır.

M.Ə.Rəsulzadə 1928-ci ildə İstanbulda "İnqilabçı Sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və Bolşevizm" və "Qafqasya türkləri" kimi əsərlərini çap etdirmişdir.

Həmin ildə onun redaktorluğu ilə "Azəri türkü" (1928-1931), sonra isə "Odlu yurd" (1929-1930) jurnalları və həftəlik "Bildiriş" (1929-1931) qəzeti də nəşr edilməkdə idi.

1930-cu ildə M.Ə.Rəsulzadənin Parisdə fransız dilində "Azərbaycan və istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları çap olundu.

1931-ci ildən M.Ə.Rəsulzadənin mühacirət dövrü Avropa ölkələrində davam edir. Onun redaktorluğu ilə Berlində ayda üç dəfə nəşr edilən "İstiqlal" (1932-1934) qəzeti və "Qurtuluş" (1934-1938) jurnalı çap edilirdi.

1933-cü ildə M.Ə.Rəsulzadənin Berlində çap olunan "Azərbaycan respublikası haqqında bəzi qeydlər" adlı kitabı da böyük maraq doğurur.

M.Ə.Rəsulzadə həm də görkəmli ədəbiyyatşünas idi. Onun 1936-cı ildə Berlində "Çağdaş Azərbaycan ədəbiyyatı" məqaləsi çap edilmişdir. 1938-ci ildə Berlində alman dilində "Azərbaycan problemi" və 1939-cu ildə Varşavada polyak dilində çıxmış"Azərbaycanın hüriyyət savaşı" kitablarının adlarını çəkməmək olmaz. O, 1938-ci

ildən Polşa hökumətində məsləhətçi işləmiş, sonralar 1940-cı ildən Rumıniyada yaşamışdır.

Onun 1943-cü ildə İstanbulda nəşr olunmuş "İslam-türk ensiklopediyasının" 1-ci cildində "Azərbaycan ləhcəsi" adlı məqaləsi çap edilmişdir. 1947-ci ildən Ankaraya köçən M.Ə.Rəsulzadənin 1949-cu ildə "Azərbaycanın kültür kələnkləri" adlı kitabı işıq üzü görmüşdür. Onun "Çağdaş Azərbaycan ədəbiyyatı" (1950-ci il) və "Çağdaş Azərbaycan tarixi" (1951-ci il) kitabları həmin illərdə M.Ə.Rəsulzadənin məhsuldar işlədiyini göstərir.

O, 1951-ci ildə Ankarada "Azərbaycan şairi Nizami" adlı sanballı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına bir çox yeniliklər gətirmişdir.

Həmin ildə M.Ə.Rəsulzadənin Nyu-Yorkda ingilis dilində nəşr olunan "Ukrayna" toplusunun 1951-ci il 3-cü nömrəsinin 7-ci cildində "Azərbaycan respublikası" məqaləsi çap edilmişdir.

Londonda ingilis dilində nəşr olunan Britaniya ensiklopediyasında "Müsavat partiyasının yaranması tarixi və Azərbaycan Demokratik Respublikasının təşəkkülünə aid" məqalə də onun qələmindən çıxmışdır.

İkinci Dünya müharibəsindən sonra Türkiyədə nəşr edilməkdə olan Türk ensiklopediyasında Azərbaycana aid məqalələrin bir çoxu M.Ə.Rəsulzadə tərəfindən yazılmışdır.

Ankarada yaşadığı dövrdə o, "Türk tarix qurumu" və "Türk dili qurumu" ilə yaxından əməkdaşlıq etmişdir. 1952-ci ildən Ankarada nəşr olunan "Azərbaycan" jurnalında xalqımızın tarixi və ədəbiyyatı haqqında silsilə məqalələri yerləşdirilmişdir. Təkcə buradan M.Ə.Rəsulzadənin heyrətamiz yaradıcılığına bələd olmaq olar. O, ikinci dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan "Qafqaz"

(1932-1938) və fransızca buraxılan "Prometey" (1928-1939) jurnallarında öz məqalələri ilə çıxış etmişdir.

Onun 1920-ci ildən sonra işlətdiyi açıq və gizli imzalardan "Məhəmməd Əmin Rəsulzadə", "Yalvac oğlu", "Məhəmməd Əmin", "M.Əlif Rəsulzadə" və s. qeyd etmək olar.

Ankara Universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan Məhəmməd Əmin 1955-ci il martın 6-da gecə saat on birə on dəqiqə qalmış üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyərək əbədiyyətə qovuşdu. Ankara radiosu martın 7-də saat 22:45-də sabiq Azərbaycan milli şürasının sədri M.Ə.Rəsulzadənin vəfat etdiyini təəssüflə bildirdi.

O, Ankarada, Əsri qəbirstanlığında dəfn edilmişdir.

Vəfatı ilə bağlı Türkiyədə, İranda və Qərbi Avropa ölkələrində xeyli nekroloq çap olunub. Bunlardan ən maraqlısı S.H.Tağızadənin çap etdirdiyi nekroloqdur.

Əsli Ordubaddan olan, özü Təbrizdə dünyaya gəlmiş, M.Ə.Rəsulzadə ilə birlikdə İran məşrutə inqilabının əsas rəhbərlərindən biri hesab edilən, sonralar Pəhləvi üsul-idarəsinin tərəfdarına çevrilən və bununla da öz doğma xalqına yad bir adam olan, İranın ən görkəmli dövlət xadimi, diplomatı və alimi sayılan Seyid Həsən Tağızadə "Sühən" jurnalında yazırdı:

"Rəsulzadə, bütün ömrüm boyunca, Şərq dünyasında tayına rastlaşmadığım, mübaliğəsiz söyləyə biləcəyim fövqəladə nadir insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbi, doğru sözlü, mətanətli, tam mənasıyla dürüst, fikir və yoluna dərin bir iman bəsləyən fədakar, mücahid və örnək bir insandı. Belələrinə zəmanəmizdə və hələ bizim tərəflərdə rast gəlmək mümkün deyildir".



Məhəmməd Əmin Rəsulzadənin cənazəsi Əsri məzarlığına aparılarkən

1978-ci ildə Ankarada M.Ə.Rəsulzadənin "Milli təsanüd" ("Milli həmrəylik") adlı kitabı nəşr olunmuşdur. 1985-ci ildə Oksfordda M.Ə.Rəsulzadənin"Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" adlı kitabı ingilis dilində ön sözlə, rus dilində ikinci dəfə çap edilmişdir. M.Ə.Rəsulzadənin 1989-cu ildə "Əsrimizin Səyavuşu" və 1990-cı ildə isə "Azərbaycan respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti" adlı kitabları Ankarada yenidən işıq üzü görmüşdür. 1993-cü ildə Türkiyə Respublikasında tikilmiş məktəbə (Mehmet Emin Resülzade Anadolu Lisesi) adı verilmişdir. M.Ə.Rəsulzadənin 1989-cu ildə "Əsrimizin Səyavuşu" və 1990-cı ildə isə "Azərbaycan respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti" adlı kitabları Ankarada yenidən işıq üzü görmüşdür. Azərbaycan milli dövlətinin yaradıcısı, xalqımızın böyık oğlu və görkəmli mütəfəkkir Məmməd Əmin Rəsulzadənin ədəbi-tarixi irsini geniş oxucu kütləsinə çatdırmağın vaxtı çoxdan gəlib çatmışdır. Bu baxımdan ilk dəfə xalqımıza təqdim olunan

M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" (Türk dilindən tərcümə edən Mayis Əlizadə), "Çağdaş Azərbaycan ədəbiyyatı" və "Çağdaş Azərbaycan tarixi" (hər iki əsəri türk dilindən tərcümə edən Paşa Əli oğludur) əsərləri, geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanın görkəmli ictimai-siyasi xadimi M. Ə. Rəsulzadənin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında" 29 dekabr 1993-cü il tarixli, 79 nömrəli Fərmanı imzalamışdır.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" 22 noyabr 2013-cü il tarixli sərəncam imzalamışdır.

Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi edilməsi haqqında 30 dekabr 2023 tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzaladı.

Dövlətimiz, xalqımız M.Ə.Rəsulzadənin xatirəsini həmişə əziz tutmuş, onun Azərbaycan xalqı üçün gördüyü işləri yüksək qiymətləndirmişdir.

## Görkəmli şəxsiyyətlərin M.Ə.Rəsulzadə haqqında söylədikləri

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycanın bütün vətəndaşları - biz Azərbaycan Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik...

**Ümummilli lider Heydər Əliyev**

Məhəmməd Əmin Rəsulzadə xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadimdir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Ömrünün çoxunu Azərbaycanın istiqlalı ideyasının təbliğinə, Azərbaycan ədəbiyyatının böyük nailiyyətlərinin yayılmasına həsr etmiş Məmməd Əmin Rəsulzadənin yaradıcılığı mədəniyyət tariximizdə dəyərli xəzinədir.

**Professor Pənah Xəlilov**

“Rəsulzadə bütün ömrüm boyunca Şərq dünyasında tayına rastlaşmadığım mübaliğəsiz söyləyə biləcəyim fövqəladə nadir insanlardan biri idi. Məhəmməd Əmin bəy tərbiyəli, qüvvətli və sağlam məntiq sahibi, təmiz qəlbi, doğru sözlü, mətanətli, tam mənasıyla dürüst,fikir və yoluna dərin bir iman bəsləyən fədakar, mücahid və örnək bir insandı. Belələrinə zəmanəmizdə və hələ bizim tərəflərdə rast gəlmək mümkün deyildir".

**Diplomat Seyid Həsən Tağızadə**

Xalqımızın böyük oğlu Rəsulzadənin ədəbi – siyasi irsi bu gün hər bir azərbaycanlının vətənsevərlik, sədaqət ruhunda tərbiyəsi üçün etibarlı mənbədir.

**Xalq yazıçısı Elçin Əfəndiyev**

Elə şxsiyyətlər var ki, illərin, əsrlərin keçməsi onları unutdura bilmir, onlar vəfatlarından sonra da yaşayırlar. Çünki onlar dünyada cismani deyil, belə demək mümkünsə, ruhani bir ömür sürürlər. Onları yaşadan yaşatdıqları ülvi dəyərlər, daim yardımsevər olmaları, təhsilə, mədəniyyətə, mənəviyyata göstərdikləri misilsiz xidmətləridir. Əbəs yerə deməyiblər ki, “Xalq üçün yaşayanı haqq əbədi yaşadır”...

**Azərbaycan yazıçılar birliyinin üzvü Əsəd Aslanoğlu**

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan davasını qəlblərə nəqş etmiş ecazkar bir qəhrəman və mütəfəkkir kimi əbədi yaşayacaqdır. Onun sonsuz mübarizəsi Azərbaycan davasını bütün türk xalqlarının şüuruna yerləşdirmişdir.

**Şair, dramaturq Teyyub Qurban**

“Millət yoludur, haq yoludur tutduğumuz yol
Ey haq Yaşa, ey sevgili millət, yaşa, var ol!

**Böyük türk şairi Tofiq Fikrət**

**M. Ə. Rəsulzadənin kəlamları**

“İnsanlara hürriyyət, millətlərə istiqlal!”

**M. Ə. Rəsulzadə**

Yüz il əvvəl müxtəlif xanlıqlar şəklində hakimiyyətimizi itirdiyimiz zaman bugünkü Azərbaycan vəhdətinə malik deyildik. Yüz illik əsarət dərsi ilə bolşevik dövründəki hürriyyət mübarizəsi bizi özümüzə tanıtdı. Vəhdət və mövcudiyyətimizin əlaməti olaraq əlimizə türklüyümüzü, müsəlmanlığımızı və müasir bir xalq olduğumuzu göstərən bir istiqlal bayrağı verdi”.

**M. Ə. Rəsulzadə**

“Milliyyətin ümdə rüxnünü təşkil edən şey dildir. Dil hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir... Bir milləti məhv edib aradan götürmək qəsdində olan siyasətlər də əsil bunun üçündürki, təməssül əməliyyatı icra edərkən, ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. Çünki dil həmən millət deməkdir”.

**M. Ə. Rəsulzadə**

Zaman ağır, keçəcəyimiz yol tikanlı və əzablıdır. Bu maneəli yollarda ...firqə ehtirasları, şəxsi – qərəzlər və bütün bu kimi vətən və millət qayəsi qarşısında səfil qalan qərəzlər atılmalı, vətən qayəsi və millət duyğusu hər şeydən yüksək tutulmalıdır.

**M. Ə. Rəsulzadə**

Diriliklərin ən qiymətlisi milli dirilikdir.

**M. Ə. Rəsulzadə**

"Ey gənclik! Sənin öhdəndə böyük bir vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:

Bir kərə yüksələn bayraq bir daha enməz!"

**M. Ə. Rəsulzadə**

İdeoloji mənşəyi etibarilə milli Azərbaycan hərəkatı Şərqdəki milli qurtuluş ideyaları ilə Qərbdəki mədəni və demokratik cərəyanları özündə birləşdirən hərəkatdır.

**M. Ə. Rəsulzadə**

Müqəddəratını hürriyyətsevər millətlərin və mədəniyyət dünyasının müqəddaratı ilə bağlamış Azərbaycan, hürriyyət və demokratiya cəbhəsinin son və qəti zəfərinə əsla şübhə etməz! Duyduğu min bir iztirabdan sonra arzuladığı hürriyyət və istiqlalına qovuşacaq, şair Gültəkinin bu beytini zəfər sevincləri içində təkrar edəcək:

Sən bizimsən, bizimsən, durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı **Azərbaycan!...**

**M. Ə. Rəsulzadə**

Azərbaycanın böyük oğlu Nizami Gəncəviyə can və ürəkdən bağlanmaq, ona aid maddi və mənəvi xatirələri Vətən və milləti birləşdirən bir müqəddəsat kimi mənimsəmək, əsərlərini diqqət və ehtiram ilə öyrənmək, yaratdığı ədəbi tablo və timsalları müasir sənətin texnikası vasitəsi ilə yenidən canlandırmaq, möcüzəli sənətindəki bütün incəliklərin zövqünə varmaq, yüksək ruhundakı böyüklük və dərinliyin həqiqi ölçülərini bilməyə çalışmaq, varlığın sirlərini araşdıran hikmət və fəlsəfəsini qavramaq, bir sözlə: öz zamanında anlaşılmadığından şikayət etdiyi "türkcə"sini anlamaq budur vətənpərvər Azərbaycan ziyalılarının və xalqını sevən bütün türklərin vəzifəsi.

**M. Ə. Rəsulzadə**

**M. Ə. Rəsulzadənin xatirəsinə sərgi təşkil edərkən istifadə olunacaq kitablar**













TEYYUB QURBAN
DİRİLİK
GƏMİSİ


AZƏRBAYCAN TARİXİNDƏN
YÜZ ŞƏXSİYYƏT


AZƏRBAYCAN
XALQ
CÜMHURİYYƏTİ
ENSİKLOPEDİYASI


NƏSİMAN YAQUBLU
Nuru Paşa
BAKININ
QURTULUŞU







## Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Azərbaycan milli dövlətinin yaradıcılarından olan , xalqımızın böyük oğlu və görkəmli mütəfəkkiri M. Ə. Rəsulzadənin 140 illik yubileyi münasibəti ilə və onun ədəbi - tarixi irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədilə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bu sərəncama əsasən F. Köçərli adına RUK - da geniş tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına müxtəlif başlıqlar altında yazılmış sərgilər, oxucu konfransları, kitab icmalları, sual - cavab, ədəbi bədii gecə, görüşlər və bir sıra başqa tədbirləri daxil etmək olar.

M. Ə. Rəsulzadənin ömür yolunu, örnək fəaliyyətini araşdırıb xalqımızın , oxucularımızın diqqətinə çatdırmağı özümüzə borc bildik. Çünki xeyirxah ənənələr xatırlandıqca canlanar və yenidən yaşadılmağa səbəb olar...

**Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Məmməd Əmin Rəsulzadə müasir gəncliyin gözü ilə" konfrans da təşkil etmək mümkündür**.

Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, müəllimlərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Məmməd Əmin Rəsulzadə ilə bağlı kitabxana rəhbərliyi, siyasətçilər, müəllimələr, jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

Oxucu konfranslarını müxtəlif adlar altında keçirmək olar. Məsələn:

**İstiqlal mücadiləmizin parlaq siması Məhəmməd Əmin Rəsulzadə**

**"Müstəqilliyimizi və milli mənsubiyyətimizi qoruyaq"**

**" Insanlara hürriyyət millətlərə istiqlal!"**

**"Birliyimizin sübut günü"**

**"Bir kərə yüksələn bayraq bir daha enməz"**

**"Dirçəlişdən başlayıb müstəqilliyə gedən yol"**

**"Azərbaycan Müstəqillik yolundan dönməyəcək!"**

**" İstiqlal carçısı Məmməd Əmin Rəsulzadə"**

**“Azərbaycan dövlətinin müstəqilliyi əbədidir” və s.**

**1. Giriş hissə (Məmməd Əmin Rəsulzadə haqqında məruzə)**
**2. Məmməd Əmin Rəsulzadənin haqqında kitabxana rəhbərliyinin, siyasətçilərin, jurnalist, yazıçı və şairlərin çıxışları.**
**3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların “Məmməd Əmin Rəsulzadə ” ilə bağlı məruzələri.**
**4. Konfransın yekunu.**

Siyasətçilərimizin, gənc oxucularımızın, məktəblilərin Məmməd Əmin Rəsulzadə haqqında ideya və maraqlarını öyrənmək məqsədilə dəyirmi masanın keçirilməsi də, məqsədə uyğundur. Müəllimələr, siyasətçilər, yazarlar, şairlər müstəqilliyimizin qorunmasında, gənclərin həyatının yaxşılaşdırılmasında mühüm rolu olan gənclər təşkilatlarının nümayəndələri tədbirə dəvət olunur.

Tədbir zamanı siyasətçilər, yazarlar, müəllimələr, gənclər və təşkilat nümayəndələri məruzə edirlər. Gənclərimizin M. Ə. Rəsulzadənin həyat və fəaliyyəti, Azərbaycanın müstəqilliyinin qorunması , bu yolda canlarını fəda etmiş şəxsiyyətlərin haqqında fikirləri, ideyaları, gələcək planları barədə çıxışları dinlənilir. Hər bir tədbir iştirakçıları dinlənildikdən sonra, onlara oxucular tərəfindən suallar verilir və iştirakçılar verilən suallara açıqlıq gətirirlər.

**Kitabxanalarda keçirilən silsilə tədbirlərdən biri də kitab icmalıdır.** Azərbaycanın böyük şəxsiyyəti Məmməd Əmin Rəsulzadə haqqında yazılmış kitabların icmalının keçirilməsində məqsədimiz oxucular arasında M. Ə. Rəsulzadə ilə, müstəqilliyimizlə bağlı nəşr olunan bir çox kitablarla oxucuları tanış etməkdir. Bu kitabların siyahısına Məmməd Əmin Rəsulzadənin əsərlərini, Teyyub Qurbanın ” Dirilik gəmisi”, “Dönməzlik”, Elçin Əfəndiyevin M. Ə.

Rəsulzadə haqqında qələmə aldığı əsərləri və s. aid etmək olar.

**Kitabxanada keçiriləcək tədbirlərin ən maraqlısı ədəbi-bədii gecədir**.

Ədəbi bədii gecə əsasən üç hissədən ibarət olur. Birinci hissədə tədbirdə iştirak edən qonaqların çıxış və məruzələri dinlənilir. İkinci hissədə isə Məmməd Əmin Rəsulzadə ilə, Müstəqilliyimizlə bağlı bir çox vidolentlər, müxtəlif slaydlar nümayiş olunur. Üçüncü hissədə ədəbi - bədii kompozisiya iştirakçılara təqdim olunur. Həmçinin tədbirin bədii hissəsində müxtəlif şeir və musiqilər də səslənir.

Tədbirə kitabxananın müdiriyyəti tərəfindən M. Ə. Rəsulzadənin yaradıcılığı ilə yaxından tanış olan xalq yazıçısı Elçin Əfəndiyev, Şair, dramaturq, publisist və tədqiqatçı Teyyub Qurban, Milli Qəhrəmanlar, görkəmli şəxslər, müəllimlər, şairlər, yazıçılar və bir sıra qonaqlar dəvət olunur. Foyenin və zalın divarlarına Məmməd Əmin Rəsulzadənin fəaliyyətindən bəhs edən fotolar, M.Ə. Rəsulzadənin haqqında deyilmiş sitatlar yazılmış plakatlar asılır.

Qeyd etdiyimiz kimi, tədbir bir çox başlıqlar altında keçirilə bilər. İndi isə "İstiqlal carçısı Məmməd Əmin Rəsulzadə " adlı ədəbi bədii gecəninin ssenarisini sizə təqdim edirik. Tədbir Azərbaycanın Dövlət himni ilə başlayır. Səhnəyə üçrəngli Azərbaycan bayrağı gətirilir. Bir çox sitatlar səhnənin divarından asılır. Məsələn: "İnsanlara hürriyyət millətlərə istiqlal!", "Dirçəlişdən başlayıb müstəqilliyə gedən yol", ''İstiqlal carçısı M. Ə. Rəsulzadə", ''Milli dirçəlişdən qüdrətli dövlətçiliyə doğru",''Birliyimizin sübut günü" ,"Müstəqillliyimiz əbədidir", "Haqq verilməz, alınar!",''Bir kərə yüksələn bayraq, bir daha enməz" , Müstəqilliyimiz eşidilən səsimiz, duyulan nəfəsimizdir".

Səhnənin divarından Azərbaycan bayrağı, M. Ə. Rəsulzadənin söylədiyi müdrik kəlamlar, Şəxsiyyətin portreti , M, Ə. Rəsulzadənin fəaliyyəti zamanı çəkilmiş şəkillər asılır.

***Aparıcılar Azərbaycan himninin sədaları altında səhnəyə çıxırlar.***

**I Aparıcı:** Salam əziz və hörmətli tədbir iştirakçıları. Bizim bu gecəyə yığışmaqda məqsədimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən dahi şəxsiyyət M. Ə. Rəsulzadənin 140 illik yubileyini kitabxanamızda təntənəli şəkildə qeyd etməkdir. Anadan olmasının 140 illiyini məhəbbət və ehtiramla qeyd etdiyimiz Məmməd Əmin Rəsulzadə Azərbaycan elmi, mədəniyyəti, siyasi və ictimai – pedoqoji fikri tarixində ən layiqli yerlərdən birini tutur. Elə şəxsiyyətlər var ki, illərin, əsrlərin keçməsi onları unutdura bilmir, onlar vəfatlarından sonra da yaşayırlar. Çünki onlar dünyada cismani deyil, belə demək mümkünsə, ruhani bir ömür sürürlər. Onları yaşadan yaşatdıqları ülvi dəyərlər, daim yardımsevər olmaları, təhsilə, mədəniyyətə, mənəviyyata göstərdikləri misilsiz xidmətlərdir. Əbəs yerə deməyiblər ki, "Xalq üçün yaşayanı Haqq əbədi yaşadar"...

M. Ə. Rəsulzadə yalnız öz millətinin azadlığı və müstəqilliyi yolunda çarpışmaları ilə deyil, həm də yaratdığı tarixi, fəlsəfi, elmi, ədəbi əsərləri, irəli sürdüyü orijinal ideyaları ilə tariximizin ən böyük şəxsiyyətlərindəndir.

**II Aparıcı:** O, ilk növbədə əqidəsi uğrunda hər cür əzaba, hər cürfədakarlığa hazır olan bir insan , mənsub olduğu millətin milli ideologiyasını yaradan və bu əsasda onun özünüdərkinə və həmişəyaşarlığına can atan mütəfəkkirdir. Məhz elə buna görə də Məmməd Əmin Rəsulzadənin pedoqoji ideyalarının mayasını Xəlqilik, Həyatilik, Tarixilik və Müasirlik təşkil edir.

“Milli fikir toxumları səpildi,
İslatdı torpağı axan qızıl qan.
Bu əkindən sabahkı bir baharda,
Əlbət bitər yeni bir Azərbaycan.
Şiddətliysə əyər mövsümün qışı,
Yeni bahar, demək, parlaq olacaq.
Verdiyimiz qurbanların bahası
Bizə yalnız hürriyyətlə dolacaq”.

**I Aparıcı:** M. Ə. Rəsulzadə pedoqoji fikir tariximizdə təlim, tərbiyə elminin metodologiyasını hazırlayan, vətəndaş – insan yetişdirilməsi konsepsiyasını irəli sürən xadim kimi müstəsnalıq təşkil edir. O ilk dəfə olaraq Azərbaycan türkünün, siyasi, hüquqi azadlığını mənəvi azadlıqla vəhdətdə götürmüş, demokratik təhsilə, ana dilli, milli məzmunlu tərbiyə və ümumbəşəri dəyərli təlim üzrə qurulan məktəbi bunun üçün mühüm vasitə hesab etmişdir. Onun Azərbaycan gənclərinə xitabən söylədiyi müdrik kəlamları xalqımızın dillər əzbərinə çevrilmişdir.

*Gəlin məktəbli oxucularımızın ifasında bu müdrük kəlamlardan bir neçəsini dinləyək: Uşaqlar səhnəyə çıxıb müdrik kəlamları söyləyirlər:*

**Məmməd Əmin Rəsulzadənin müdrik kəlamları**

Diriliklərin ən qiymətlisi milli dirilikdir.

“Milliyyətin ümdə rüxnünü təşkil edən şey dildir. Dil hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir... Bir milləti məhv edib aradan götürmək qəsdində olan siyasətlər də əsil bunun üçündürki, təməssül əməliyyatı icra edərkən, ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. Çünki dil həmən millət deməkdir”.

28 mayda Azərbaycan üfüqlərində açılan milli bayraq təkrar o doğma yurd üzərində açılacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq, hürriyyətə qovuşacağıq”.

“Ey gənclik! Sənin öhdəndə böyük bir vəzifə var: Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:

Bir kərə yüksələn bayraq bir daha enməz!”

“Əlbəttə ki, sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərindən azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə qaldıracaq və bu yolda ya qazi və ya şəhid olacaqsan!

“Milli hakimiyyəti itirmək qədər böyük fəlakət yoxdur”.

“Milli mədəniyyətə dayanması və Milli Demokratik Türk Dövlətçiliyi təməli üzərində qurulması etibarilə Azərbaycan ilk Türk Dövləti və ilk müsəlman Cümhuriyyətidir.

“On doqquzuncu əsr Avropa millətlərinin doğulduğu və böyüdüyü əsrdir. İyirminci əsr də Asiya millətləri üçün belə bir əsr olacaqdır”.

“Coğrafi mövqe etibarilə Avropa ilə Asiya arasında yerləşən Qafqaz, milli ünsürlər və mədəni dəyərləri baxımından da iki aləmi təşkil edən bir keçiddir. XIX əsrin Avropasında hökm

sürən, indi də XX əsr Asiyasını bürüyən böyük fikir, milli istiqlal fikri burada mütləq zəfər çalacaqdır.”

“Yüz il əvvəl müxtəlif xanlıqlar şəklində hakimiyyətimizi itirdiyimiz zaman bugünkü Azərbaycan vəhdətinə malik deyildik. Yüz illik əsarət dərsi ilə bolşevik dövründəki hürriyyət mübarizəsi bizi özümüzə tanıtdı. Vəhdət və mövcudiyyətimizin əlaməti olaraq əlimizə türklüyümüzü, müsəlmanlığımızı və müasir bir xalq olduğumuzu göstərən bir istiqlal bayrağı verdi”.

“Azərbaycanlılar Türkdürlər. Türklər 200 il “Ergenekon” tilsimində qaldılar. Nə qədər çalışsalar da, bir tərəfə çıxa bilmədilər. Fəqət bir dəmirçinin himməti dağları əridib türkləri təkrar geniş dünyaya çıxartdı”.

“İnsanlara hürriyyət, millətlərə istiqlal!”

“Bir millətin yeni nəsli ondan əvvəlki nəsildən daha az mədəni və daha az təcrübəli olarsa, o millətin varlığı və istiqlalı təhlükəyə məruz qala bilər”.

“Madam ki, milliyyətçiyik deyirik, madam ki, Milli Dövlət İstiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə, nə də kommunizmə təkamül mümkün ola bilməz. Bizcə, müdafiə ediləcək yeganə sosial sistem milli birlik sistemidir”.

Yıxıcı və sarsıdıcı imperialist və kosmopolit fikirlərin önünə ancaq milli təməli qüvvətləndirmək və sağlamlaşdırmaqla keçilə bilər. Milliyyətçilik fikri ən təbii, ən mədəni və ən irəli bir fikirdir. Elm və mədəniyyətin inkişafının və yayılmasının qarşısını almaq bir yana dursun, bu, inkişaf və yayılmanın ən təsirli və qüvvətli bir amilidir. Həm də mədəniyyətin ən təbii və normal inkişaf yoludur”.

“Azərbaycanlılar “Mehdi” zühuruna inanırlar. Azərbaycanın Mehdisi xalqının idealından, milli – istiqlalından ibarətdir.

\Fəqət indilik biz ümidimizi qırmayaq, o bayrağı qaldıracaq qanından keçən dəmirçilər hazırlayaq. Biləк ki, çoxdan məhv edildiyi zənn edilən millətlərin birər - birər dirildiyi bu ən böyük çaxnaşmada ölmək istəməyən millətləri diri - diri basdırmaq qətiyyən mümkün deyildir”.

“Mücadilə bütün şiddəti ilə davam edir. Bu mücadilənin nə zaman bitəcəyini qətiyyətlə söyləmək mümkün olmasa da, zəfərlə bitəcəyini qətiyyətlə deyə bilərik”.

“Milli varlıqları qoruyan və bu varlığın ayrılmaz haqqı olan siyasi istiqlaliyyəti üçün çarpışan məhkum millətlərdə olduğu kimi, Azərbaycan millətçiliyi də ümumi hürriyyət prinsiplərinə bağlıdır”.

Tarixi müqəddəratımız nə qədər ağır, keçirdiyimiz istila nə qədər faciəli olsa da, yaşadığımız əsirlik günləri nə qədər uzun sürsə də, millətimizin göstərdiyi qarşıdurma gücünün birliyi bizə ümid verir”.

Əgər mümkün olsaydı, qalxıb xalqa deyəcəydim ki, görünüz milli aşıqlarımızın havası nə qədər dilrübadır, nə qədər cazibədardır. Aşıq Kərəm, Koroğlu nəğmələrində o qədər ülvi hisslər vardır ki, onu ancaq saz nəğməsilə oxunduğu zaman saf və pak ürəkləriniz anlaya bilər.

Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvə təşkil edər.

Təhsilin demokratikləşdirilməsi ideyasının əsasını, xalqın ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən öyrənmək və bu biliklərdən dünya mədəniyyətinə körpü salmaq təşkil edir.

Əlbəttə, sən onun bu ümidini qırmayacaq, Azərbaycan türklərinin yanıqlı nəğmələrinə mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı bir daha o bina üzərinə dikəcək, bu yolda ya qazi, ya şəhid olacaqsan!

“Zaman ağır, keçəcəyimiz yol tikanlı və əzablıdır. İrəlidə olan bir çox müşkülləri və maneələri də nəzərə almalıyıq. Bu

maneəli yollarda ... firqə ehtirasları, şəxsi - qərəzlər və bütün bu kimi vətən və millət qayəsi qarşısında səfil qalan qərəzlər atılmalı, vətən qayəsi və millət duyğusu hər şeydən yüksək tutulmalıdır”.

Görkəmli bəstəkarımız Üzeyir Hacıbəyov musiqimizin Füzulisidir. Məhəmməd Füzulinin Azərbaycan ədəbiyyatı sahəsində gördüyü işi, Üzeyir Hacıbəyov milli musiqimizdə həyata keçirmişdir.

**II Aparıcı:** Biz inanırıq ki, bu müdrik kəlamlar illər keçsə də xalqımızın yaddaşından,ürəyindən silinməyəcək.Milli istiqlaliyyətimiz uğrunda apardığımız mübarizənin ayrı - ayrı məqamlarında vətən torpağımız zaman - zaman igidlərimizin qanları ilə suvarılsa da, ruhumuzda olan azadlıq eşqini düşmən məhv edə bilməyib. Bu gün Azərbaycan Demokratik Respublikasının əsl milli tarixi bayram kimi təntənəli şəkildə qeyd olunması da məhz bu əzmin və azadlıq idealından dönməzliyin nəticəsidir. İstiqlal günümüzün 28 mayın birinci ildönümü 1919 - cu ildə böyük təntənə və ruh yüksəkliyi qeyd olunub.

**I Aparıcı**: Bu bayram münasibəti ilə M. Ə. Rəsulzadə 1919 - cu il mayın 31 - də “İstiqlal” qəzetində dərc etdirdiyi “Həşəmətli bir gün (Musavat məsləkinin elani – səfəri)” məqaləsində xalqımızın milli istiqlaldan doğan sevincini təsvir etdikdən sonra yazırdı:“ Bakı tarixinin, bəlkə də bu ana qədər qeyd eləmədiyi bu böyük gündə bir çoxları kəndi – kəndinə:Əcəba,bu uyqumudur?! – dedilər. Əvət, bu, Azərbaycan tarixinin ən böyük həqiqətini təşkil edən gün o qədər xariqüladə idi ki, uyquya bənzəyirdi”.

**İstiqlal, o yaşayan millətin qəlbində can,**
**İstiqlal, o səadət, həyat, zəfər,şərəf, şan,**
**İstiqlal, o sönməyən müəbbəd bir məşalə,**
**Könüllərdə tutuşur, gözlərdə sönsə belə,**

**II Aparıcı:**Əlbəttə, ilk vaxtlar milli istiqlaliyyətimizi, bunun mümkünlüyünü hamı eyni cür dərk və qəbul edə bilmir, bir qism adamlar çaşqınlıq içərisində çırpınırdı. Lakin bu yolda qazanılan nailiyyətlər xalqın həyata və azad günə olan inam və eşqini son dərəcə möhkəmlətdi. Bu özünü milli istiqlal gününün xalq tərəfindən necə böyük ruh yüksəkliyi ilə keçirilməsində də göstərirdi. Bütün bu tarixi həqiqətlər belə bir fikrə haqq qazandırır ki, " Mayın 28 - də istiqlal bayramını bir səmimiyyətlə qarşılamaları ilə azərbaycanlılar bütün aləmə göstərdilər ki, istiqlaldan əl çəkməyəcəklər və bütün böhtançılara deyəcəklər ki:

**I Aparıcı:**İstiqlal xanların, bəylərin, ağaların deyil, Azərbaycan xalqının , türk millətinin milli, ən müqəddəs ideallarıdır!" M. Ə. Rəsulzadə əldə olunan azadlığın qorunması üçün millətin daha kamil bir səviyyəyə çatdırılmasının vacibliyini qarşıya mühüm tarixi vəzifə kimi qoyurdu:"Böylə bir hissiyata malik olan millətin haqqını hər kəs tanımalı, bu milləti bu qədər sevdiyi hürriyyət və istiqlalını müdafiə üçün mübarizə edə bilən bir hala qoymalıdır".

*Söhbət müstəqillikdən, milli istiqlaliyyətimizdən düşmüşkən gəlin oxucularımızın ifasında Məmməd Əmin Rəsulzadənin Mayıs duyğuları şeirini dinləyək.*

**Mayıs duyğuları (Məhəmməd Əmin Rəsulzadə)**

**Ilk çağındaydı gözəl mövsimin,**
**Qışdan çıxılmışdı, bahar gəlmişdi.**
**İyirmi səkkizində idi mayısın,**
**Azərbaycan istiqlalə ərmişdi.**

**Derkən qopdu bir qasırğa qüzeydən,**
**Baharımız, heyhat, döndü qış oldu.**
**Azərbaycan Moskovların əlində**
**Əsarətin zəhrini dadmış oldu.**

**Azərilər sarsıldı bu zərbədən,**
**İstilaya qarşı üsyanlar oldu.**
**İstiqlalı bir kərə dadmış millət**
**"Hürriyyət" fikrinə candan vuruldu.**

**Milli fikir toxumları səpildi,**
**İslatdı torpağı axan qızıl qan.**
**Bu əkindən yarınki bir baharda,**
**Əlbət, bitər bir yeni Azərbaycan.**

**Şiddətliysə əgər mövsimin qışı,**
**Yeni bahar, demək , parlaq olacaq.**
**Verdiyimiz qurbanların bahası**
**Bizə yalnız hürriyyətlə dolacaq.**

**Tarixin yeni bir gözəl çağında**
**Qaranlıq qış keçib bahar gələcək.**
**Hər hansı bir ilin aydın günündə**
**Azərbaycan istiqlala ərəcək...**

**II Aparıcı**: Azadlıq şərbətini dadaraq onun ləzzətini bildiyi üçün bu bəşəri nemət uğrunda xalqın daim əzmlə mübarizə aparacağı inamı ilə M. Ə. Rəsulzadə yazırdı:

**Azərbaycan xalqı artıq əsarətə getməz!**

**Yaşasın Azərbaycan!**

Xalqımızın milli istiqlaliyyət yolunda apardığı dönməz mübarizə bu fikrin müdrikliyinə bir sübutdur. M. Ə. Rəsulzadə xalqımızın, Vətənimizin yolunda çox işlər görmüş bir şəxsiyyətdir. Onun yaratdığı ilk demokratik Azərbaycan dövləti az ömürlü olsa da, fikri, qayəsi yaşamış və 72 ildən sonra kökləri münbit torpağa işləmiş ağac kimi təzədən göyərmiş, çiçəklənmişdir.

**Bu bayraq millətə tutdu üzünü,**
**Bayraqlar ecazkar xilaskar oldu.**
**Elə həkk elədi "Allah" sözünü,**
**Bayrağın başında məşələ döndü.**
**Bayraqlar tərk etdi doğma yurdunu,**
**Bayraqla yaşadı dost diyarında.**
**Təninə sarıyıb gəzdirdi onu,**
**Azərbaycan marşı addımlarında.**

**I Aparıcı:** 23 ay ərzində vüqarla dalğalanan üçrəngli, köksü Hilallı Azərbaycan bayrağının şöhrəti Odlar yurdu hüdudlarından xeyli uzaqlarda yayılmışdır. Gənc respublikanın tarixən çox qısa bir dövrdə qazandığı uğurlardan bəhs edən M. Ə. Rəsulzadə böyük sevinc hissi ilə yazırdı ki, "Azərbaycan həyat qabiliyyətini yalnız öz içində deyil, xaricdə də hiss etdirirdi. Dünyanın hər tərəfindən yeni Türk Cümhuriyyətinə heyətlər, səfirlər gəlir, burada görülən həyati hürriyyəti, sənəti və gözəlliyi təqdir edib, heyran olurdular. Az keçmədi ki, Avropanın, Amerikanın seçkin elçiləri Azərbaycanın paytaxtını ziyarət edərək onu tanıdıqlarını və onunla hər növ mədəni və ticarət əlaqəsinə girmək istədiklərini bildirdilər.

**II Aparıcı:**M. Ə. Rəsulzadə sırf milli məzmunlu məktəb tərəfdarıydı. O, Azərbaycanda təlimin uzun əsrlər fars və ərəb, XIX əsrdən isə rus təlim sistemində aparılmasını kəskin tənqid edirdi. Milli əqidəyə, milli düşüncəyə, milli əxlaqa yiyələnmək üçün məktəbdə təlimin mütləq ana dilində və milli məzmunda aparılmasını gərəkli sayırdı. Rəsulzadə milli intibahı milli vicdanın varlığında görürdü. Milli şüurun inkişafı üçün milli vicdanın oyanmasını zəruri sayırdı.

**Üzündən, gözündən şəfəq saçırdı,**

**Memar əllərinin yadigarıydı.**

**Yanında bayrağı qanad açırdı,**

**Özü bayrağının nəğməkarıydı.**

**I Aparıcı:** M. Ə. Rəsulzadə millət balalarında milli vicdanı, vətən əxlaqını, milli özünüdərki inkişaf etdirmək üçün milli ədəbiyyatı başlıca vasitə sayırdı. O, ana dilində yazılmış bədii və tarixi əsərlərdən istifadənin daha faydalı olduğunu qeyd edir, bunun xalq tələbatından doğulduğunu əsaslandırırdı. O, "Azərbaycan Cumhuriyyəti" adlı əsərində yazırdı ki, naməlum müəlliflərin yaratdığı "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib" və s bu kimi dastanlar ürək yaxan aşıq sazlarının ruhnəvaz ahəngləri altında Azərbaycan türk kütləsinin qəlbinə elə sinir, elə yerləşirdi ki, onunla farsın "Nuş afərin" i, "Fərhad və Şirin" i hətta Firdovsi ilə Hafizi belə rəqabət edə bilməzdi.

**O, bir günəşdir ki, şəfəqi sönməz,**

**Yüksələn bayrağı bir daha enməz.**

**Azadlıq meydanı onun meydanı,**

**Coşar damarlarda şəhidlik qanı.**

**Yenə bayraqdarı şanlı ölkəmin**

**Məhəmməd Əmindir, Məhəmməd Əmin.** (Teyyub Qurban)

M. Ə. Rəsulzadənin fikrincə Nizami Gəncəviyə aid maddi və mənəvi xatirələri Vətən və milləti birləşdirən bir müqəddəsat kimi mənimsəmək, əsərlərini diqqət və ehtiram ilə öyrənmək, yaratdığı ədəbi tablo və timsalları müasir sənətin texnikası vasitəsi ilə yenidən canlandırmaq, möcüzəli sənətindəki bütün incəliklərin zövqünə varmaq, yüksək ruhundakı böyüklük və dərinliyin həqiqi ölçülərini bilməyə çalışmaq, varlığın sirlərini araşdıran hikmət və fəlsəfəsini qavramaq, bir sözlə: öz zamanında anlaşılmadığından şikayət etdiyi "türkcə"sini anlamaq. Budur vətənpərvər Azərbaycan ziyalılarının və xalqını sevən bütün türklərin vəzifəsi.

**Kim bu cənnət vətənin uğruna olmaz ki fəda,**

**Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!**

**Canı, cananı, bütün varımı alsın da xuda,**

**Etməsin tək vətənimdən məni dünyada cüda.**

(Məhmət Akif)

**II Aparıcı:** Rəsulzadə xalqın aradığını ona yetirmək üçün çalışırdı, müstəqilliyi, suverenliyi, milli əxlaq və mədəniyyəti əldə etmək və inkişafına nail olmaqla milləti dünyəvi tanınma mərhələsinə çatdırmağa can atırdı. O, bir praktik – metodistkimi yox, ideoloq, nəzəriyyəçi, maarifpərvər kimi çıxış edirdi. M. Ə. Rəsulzadə məktəbi siyasətdən, sinfi mövqelərdən kənar elm, ədəb ocağı sayırdı. Məktəbin məqsədini müstəqil düşüncəyə, milli mənlik şüuruna malik Azərbaycan vətəndaşı yetirməkdə görürdü.

*Uşaqlar səhnəyə çıxıb M. Ə. Rəsulzadənin yaradıcılığı ilə sıx maraqlandığı, şair Gültəkinin həqiqi milli*

*– inqilab mübarizəsinin nəşidləri olan milli istiqlal və milli bayrağa müraciət etdiyi şeirini söyləyirlər:*

**Hür dedim özümə, zəncir qıraraq,**
**Get də kəməndini cəhənnəmdə yak!**
**Yurdumun mübbəd nigahbanıdır**
**Asırlar altından yüksələn bayraq!**

**Bayrağımız ölməz, ölərsə əgər**
**Torpağın altına köçər ölkələr.**

**Azəri qanıyla yuyundun, yetər!**
**Etdiyin Neronun zülmündən betər...**
**Bir zəhər sunsa da, əməl doğrudu**
**Türklüyün qəlbinə vurduğun neştər.**

**Qaldıqca ruslarda diyarım mənim**
**İntiqam alacaq şüarım mənim!**

**Azəri oğluyam, adımda şan var,**
**Damarlarımda zülmə hayqıran qan var:**
**Məni öksüz sanıb kükrəmə, düşmən,**
**Bax, arxamda haqqı sevən cahan var.**

**O cındır bayrağın əlbət solacaq,**
**Azərbaycan yenə mənim olacaq!**
**Qurtuluş, ey nazlı, sevimli pəri.**

**Könüldən vurğundur sənə azəri,**
**Dişimlə qıraram bir gün gələr də**
**Bağrına saplanan qanlı xəncəri.**

**Yaşa, ey həsrətlə doğan istiqlal!**
**Yaşa ey türk, yaşa ey gözəl hilal!**

**I Aparıcı**: M. Ə. Rəsulzadənin pedoqoji sistemində ana dili problemi xüsusi aktuallıq kəsb edir. Çünki o, millətin inkişafı və azadlığının, müstəqilliyinin bərqərar olması, ümumiyyətlə, daimi mövcudluğu üçün yaşayan, zənginləşən, inkişaf edən ana dilini baş vasitə hesab edirdi. 1913 – cü ildə Türkiyədən doğma Bakıya qayıdan Məhəmməd Əmin Rəsulzadə şəhərin siyasi və mədəni həyatında fəal iştirak etməyə başlayır. Dövrü mətbuatda məqalələr yazır, axşamlarını , demək olar ki, H. Z.Tağıyevin teatrında keçirir, səhnə əsərlərinə tamaşa etməkdən doymurdu.

**I Aparıcı**: XX əsrin əvvəlllərində Azərbaycan milli qurtuluş hərəkatı yeni vüsət almışdı və bu dövr şüurun inkişafı vəformalaşmasında yeni mahiyyəti ilə səciyyələnirdi. Azərbaycanın siyasi həyatını müəyyənləşdirən bu hərəkatın unudulmaz nümayəndələrindən, şəxsiyyətlərindən biri Məmməd Əmin Rəsulzadə idi.

**Mən əzəldən bəridir hürr yaşadım, hürr yaşaram!**
**Hansı cılğın mənə zəncir vuracaqmış, şaşaram!**
**Kükrəmiş sel kimiyəm, bəndimi çeynər, aşaram!...**
**Yırtaram dağları, ənginlərə sığmam, daşaram!**
**Doğacaqdır sənə vəd etdiyi günlər Haqqın!**
**Kim bilir, bəlkə, yarın, bəlkə, yarından da yaxın!**

**(M. Akif)**

M.Ə. Rəsulzadənin dolğun ictimai və quruculuq fəaliyyətini, zəngin ədəbi – siyasi irsini öyrənmədən, onun elmi - nəzəri görüşlərinə bələd olmadan XX əsrin əvvəllərinin aydın mənzərəsini vermək mümkün deyil. Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda yorulmaz mübariz Rəsulzadənin həyat və yaradıcılığı bu baxımdan olduqca qiymətlidir.

**II Aparıcı:**Öz amalı və əqidəsi uğrunda fədakarlıqla mübarizə aparan Rəsulzadə deyirdi:

"Yeni yaranan bu siyasi türk yavrusu dirçəlib digər xalqların sırasında özünə yer tapa biləcəkmi, yoxsa sısqa körpə beşikdəcə məhv olub gedəcək? Ürəkləri göynədən əsas nisgil, bax budur. Bu çətin anda Azərbaycanın taleyini əlinə alan hər kəsin üzərinə ciddi, həm də çox vacib bir vəzifə düşür - yeni doğulmuş Azərbaycanı hər vasitə ilə xilas etməli".

M. Ə. Rəsulzadənin dövlət və ictimai xadimlərlə yazışmaları göstərirdi ki, Azərbaycan xalqının əsrlər boyu apardığı mübarizə nəticəsində qazandığı bu kövrək müstəqilliyin müdafiəsi və qorunması üçün bir sıra işlər görmüşdür.

*Hörmətli tədbir iştirakçıları gəlin məktəbli oxucularımızın ifasında Mübariz Yunusun "Azərbaycanım" şeirini dinləyək.*

**Azərbaycanım (Mübariz Yunus)**

**Qucağında anama "Ana" dediyim,**
**Barıyla – bəhrəsiylə bəhrələndiyim,**
**Qoynunda ruhuma sirli naxışlar vurulan Vətənim...**

**Babalarımızın qeyrət yüküylə yükləndiyimiz,**

**Canıma can qatan yurdum, məmləkətim ...**
**Diyarların ən gözəli,**
**Yetişdirdiyi qəhrəmanları dəli – dolu,**
**Fədailər yurdu, mənim sehrli Vətənim ...**

**Azərbaycanım, sirr yumaqlı diyarım ...**
**Mayasına can qatılan, canla yoğrulan füsunkar təbiətli Vətənim ...**

**Sən nə qədər müqəddəs bir diyarsan ...**
**Sənə Nizamilər, Nəsimilər, Füzulilər,**
**Qızıl Arslanlar, Təbrizilər, Cavad xanlar**
**Və uğrunda canlar fəda etmiş neçə - neçə böyüklər ”Anam” dedi.**
**İzin ver biz də sənə “Ana “ deyək,**
**Ey mənim təzəgəlin kimi ismətli, həyalı anam – Vətənim ...**
**Onlar kimi bəslə bizi – mətin, qüdrətli,**
**Qoy artsın tarixi şöhrətin,**
**Yenilməz olsun qüdrətin.**

**Şəhid verdiyi balalarına bağrında layla çalan ana yurdum ...**
**Səması mənəviyyat dolu,**
**Gülləri Cənnət qoxulu Vətənim ...**
**İlahi dərgahda nəqşi Behişt boyası ilə boyanmış**
**Zərif toxunuşlu məmləkətim ...**

**Keçmişi dərin, Hünərli sərkərdələr diyarı,**
**Dahilər, ariflər yurdu,**
**Qız – gəlini ər qeyrətli ...**
**Qocası müdrik – anam, anamın anası – Vətənim ...**

**Üçrəngli bayrağına, hilalına, ulduzuna canım qurban ...**

**Sənə can qurban etdikcə daha da müqəddəsləşir, daha da gözəlləşirəm,**

**Şəhidinə qurban olduğum məmləkətim ...**

**Darıxma, o gün gələcək,**

**Parçaların poladtək birləşəcək.**

**İnan, inan ki, Qarabağın, İrəvanın, Zəngəzurun,**

**Borçalının, Dərbəndin, Ərdəbilin, Təbrizin**

**Səsini – sədasını, yanğısını qeyrətli oğulların duyur ...**

**Duyduqca yanır, qovrulur ...**

**Bu səsi, bu hayqırışı könüllərə,**

**Bir - birinə, nəsillərə ötürür - əmanət verir.**

**Haray çəkib çağırır:**

**“Gəlin! Gəlin birləşin!” – deyir.**

**“Birliyimiz bütünlüyümüzdür,**

**Bütünlüyümüz böyük Azərbaycandır” deyir ...böyük Azərbaycandır” deyir ...**

**İnan ... İnan ki, yağı düşmən bu çağırışı duyanda**

**Lərzəyə gəlir, qorxuya düşür, pərən – pərən olur ...**

**Bağrı yarılır at kişnərtisindən,**

**İgidlərin yer titrədən nərə səsindən.**

**Bağrında yetişən qələbə həsrətli ər oğullarının ayağa qalxacağı gün**

**Yaxındır... Az qalıb ...**

**“Allah, Allah” sədalarına həsrət diyarlarımıza qovuşmağa çox az qalıb ...**

**Ey igid, ər oğullarımız,**

**Bu vətən sizi gözləyir ...**

**Könlü Vətən eşqi ilə döyünən əsgərini -**

**Fədaisini ...**

**Şəhadət üçün yanan igidlərini,**

**Zəfər soraqlısı cəngi səsini,**

**Oyanan torpağın hənirtisini ...**

**Gəlin ... Gəlin ... böyük Vətən sizi gözləyir...**

**Sabaha, qələbəyə böyük ümid bəsləyir.**

**I Aparıcı:** M. Ə. Rəsulzadəyə görə, millətin birləşməsi və saxlanmasında mühüm amillərdən biri də adət - ənənələrdir. Rəsulzadə gənclərin tərbiyəsində dil, din, milli tarix və ədəbiyyat, adət - ənənə amillərindən bəhrələnməyi məktəblərin əsas vəzifəsi kimi irəli sürürdü. Xalqımızın böyük oğlu M. Ə. Rəsulzadəni daha çox narahat edən yad dillə, yad tərbiyə məzmunu və metodları ilə formalaşan gənclərin mənəvi olaraq itirilməsidir.

**II Aparıcı:** O,”Milli dirilik” adlı məqaləsində bu cəhətə toxunaraq qeyd edirdi ki, dilimizi, dinimizi, tariximizi gözlədiyimiz halda, adət və əxlaqımızı da gözləmək məcburiyyətini hiss edirik. Uşaqlarımızı haman öz ruhumuzda tərbiyə etməliyik.. M. Ə. Rəsulzadənin müxtəlif illərdə, taleyin qismət etdiyi müxtəlif ölkələrdə qələmə aldığı “Çağdaş Azərbaycan tarixi”, ”Azərbaycan Cumhuriyyəti”, ”Azərbaycan şairi Nizami”,”Əsrimizin Səyavuşu” kimi kitabları, müxtəlif qəzet və dərgilərdə, toplularda dərc edilmiş saysız – hesabsız əsərləri bu gün öyrənc mənbəyi kimi çox qiymətlidir. Onun bu əsərlərə səpələnmiş ideyaları bu gün cücərməkdə, boy atmaqda, inkişaf etməkdədir.

**Basdığın yerləri torpaq deyərək keçmə, tanı,**

**Düşün altındakı minlərcə kəfənsiz yatanı.**

**Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı,**

**Vermə, dünyaları alsan da bu cənnət vətəni! (M. Akif)**

**I Aparıcı**:Xalqımızın böyük oğlu Rəsulzadənin ədəbi – siyasi irsi bu gün hər bir azərbaycanlının vətənsevərlik, sədaqət ruhunda tərbiyəsi üçün etibarlı mənbədir. Məmməd Əmin Rəsulzadə Azərbaycanın gələcəyini müəyyənləşdirən şəxsiyyətlərdəndir. Türkçülük, islamçılıq və müasirlik ideyalarını həyata keçirmək üçün 1911 - ci ildə başda M. Ə. Rəsulzadə olmaqla bütün Azərbaycan ziyalılarının arzuladığı partiya “Musavat” partiyası yaradıldı.

**II Aparıcı:** 1918 – ci ildə Azərbaycan çar Rusiyasının əsarətindən azad olub, öz istiqlaliyyətinə qovuşdu. Məmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə parlament, hökumət, dövlət atributları formalaşdırıldı və Azərbaycan Demokratik Respublikası müstəqil dövlət kimi beynəlxalq atributları formalaşdırıldı və Azərbaycan Demokratik Respublikası müstəqil dövlət kimi beynəlxalq arenaya çıxdı. Lakin siyasi vəziyyət heç də istiqlalçıların xeyrinə deyildi. Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə təhlükə törədən, əsasında ermənilərin dayandığı bir sıra qüvvələr mövcud idi. 1920 –ci il, aprelin 28 - də bu qüvvələrin səyləri nəticəsində Qızıl Ordu Azərbaycana daxil oldu və Azərbaycan Demokratik Cümhuriyyətinin varlığına son qoyuldu. Aprel hadisələrindən sonra bir müddət həbsdə qalan M. Ə.Rəsulzadə azadlığa çıxdıqdan sonra mühacirətə üz tutdu.

**I Aparıcı:** M. Ə. Rəsulzadə həm də görkəmli ədəbiyyatşünas idi.Rəsulzadənin bilavasitə mədəniyyətə, tarix və ədəbiyyat problemlərinə həsr edilmiş əsərləri, məqalə və məruzələri əsasən onun yaradıcılığının mühacirət dövrünə düşür. 1923 – cü ildə İstanbulda Məmməd Əmin “Əsrimizin Səyavuşu”,

“Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti” əsərlərini nəşr etdirir. 1951 - ci ildə isə Ankarada “Azərbaycan şairi Nizami” adlı kitabını çap etdirməklə Rəsulzadə dünya nizamişünaslığına bir sıra yeni fikirlər gətirmişdir.

Bir müddət Polşa və Ruminiyada yaşayan, sonra yenidən ikinci vətəni Türkiyəyə qayıdan, qəlbində Azərbaycan eşqinin sönməz yanğısı ilə yaşayıb – yaradan Məmməd Əmin Rəsulzadə 1955 - ci il, martın 6 - da Ankarada üç dəfə “Azərbaycan, Azərbaycan, Azərbaycan...” deyərək, gözlərini əbədi yumdu. “İnsanlara hürriyyət, millətlərə istiqlal” arzusu ilə siyasi həyata atılmış Rəsulzadə bu ideya ilə də 72 yaşında həyatla vidalaşdı. Lakin ömrünün son anına qədər inam onu tərk etmədi.

*Hörmətli tədbir iştirakçıları gəlin oxucularımızın ifasında Teyyub Qurbanın M. Ə. Rəsulzadənin həyat və fəaliyyətindən bəhs edən “Dönməzlik” əsərindən bir parçaya tamaşa edək: Səhnə əsərə uyğun tərzdə düzəldilir. M. Ə. Rəsulzadə və N. Nərimanovun rolunu canlandıran oxucular səhnəyə çıxırlar. Aparıcı sözə başlayır:*

**Aparıcı:** 1920 – ci ilin çiskinli payız günü. Bakı dəmir yolu vağzalı əsgərlərlə və adi paltar geyinmiş keşikçilərlə doludur. Moskva qatarı birinci yolda dayanmışdır.

Keşikçilərin və rus əsgərlərinin sipər kimi kəsdikləri yol aralanır və qara faytondan düşürülmüş M. Ə. Rəsulzadə vaqona mindirilir.Canlı sədd birləşir...Bu dəfə canlı hasarı ucaboy bir azərbaycanlı yarır. N. Nərimanov ətrafdakılarla salamlaşa – salamlaşa vaqona qalxır.

Vaqonun dəhlizində N. Nərimanov əvvəlcə Stalinlə, sonra da Orconikidze ilə görüşür. N. Nərimanov Məhəmmədəminin kupesinə tərəf addımlayır. Yaşca ondan on dörd il kiçik olan soydaşına məhəbbətlə baxır:

**N. Nərimanov:** Əziz dost! Müstəqil Azərbaycan Cumhuriyyətini yaratmaqla xalqa heç bir xoşbəxtlik gətirə bilmədiyiniz artıq real həqiqətdir. Mən səndən fərqli olaraq, Rusiyadakı inqilabın böyük tarixi əhəmiyyətini duyur və bu inqilaba arxalanmaqla Azərbaycanda hakimiyyəti ələ almağı zəruri hesab edirdim. Indi, səni Rusiyaya yola salarkən, mən bir daha təsdiq edirəm ki, biz hətta Rusiyanın tərkibində olsaq da. Bu o demək deyildir ki, əsarətdə qalacağıq. Biz nəhəng bir ölkədə bir ailənin bərabər hüquqlu üzvü kimi yaşayacağıq. Öz milli varlığımızı bütün dünyaya tanıdacağıq.

**Məhəmmədəmin:** Nəriman bəy, Dünya Azərbaycanı deyil, yalnız və yalnız dediyiniz nəhəng ölkəni tanıyacaqdır.

**N. Nərimanov**: Bunu gələcək göstərər. Başlıcası budur ki, biz hər ikimiz azadlıqsevər başıbəlalı bir millətin oğluyuq və ikimiz də millətimizi xoşbəxt görmək istəyirik.

**Məhəmmədəmin:** Fəqət bizim yollarımız haçalanıb...

**N. Nərimanov**:Nə üçün? Mən sənə sinfi düşmən kimi baxmıram.

**Məhəmmədəmin**: Çünki sən Leninə inanırsan.

**N. Nərimanov**: O, çox böyük və qeyri – adi insandır.

**Məhəmmədəmin**: Yaxşı, bəs Lenin tərəfindən yaradılan hərbi düşərgələrdə yüzlərlə azərbaycanlının məhv edilməsinə necə baxırsınız?

**N. Nərimanov**: Mən Bakıya varid olanda əhali tərəfindən təntənə ilə qarşılandım. Qızıl Ordu özünü layiqincə apardı. Mənim şəxsimdə xalq Sovet Rusiyasını ürəkdən alqışlayırdı.

**Məhəmmədəmin:** Nəriman bəy, mən istərdim ki, N. Nərimanovun şəxsindəxalq həmişə Azərbaycanı alqışlasın. Cəbrlə qəbul etdiriləndən səadət doğulmaz. Mənim Rusiya camaatına heç bir ədavət və nifrətim yoxdur. Fəqət öz istiqlalımız daha əziz və müqəddəsdir.

**N. Nərimanov**: Nə etməli, məni öz yolumdan, səni də əqidəndən döndərmək müşküldür. Daha vaxtdır, qardaş, gəl qucaqlaşaq.

**Məhəmmədəmin**: Nəriman bəy, nə gözəl dedin bu "qardaş" sözünü...

**N. Nərimanov**: Biz "hümmətçi olmuşuq... Nə qədər mən sağam, ata - anadan, arvad – uşaqdan nigaran qalma. Onların başından bir tük də əskilməz.

**Məhəmmədəmin:**Hamısıyla görüşdüm. Təkcə sonbeşik oğlum yatmışdı. Qırx günü təzəcə çıxıb.

**N. Nərimanov**:Rəsulunu da, Azərini də oğlum Nəcəf kimi istədiyimə şübhən varmı? Sağlıq olsun. Leninlə görüşəndə ona deyəcəyəm ki, sənə öz yanında münasib iş versin. Sonra ailəni də paytaxta apararsan.

**Məhəmmədəmin**: Çox sağ ol, Nəriman bəy. Ancaq mən Leninlə işləmərəm...

**Aparıcı:** N. Nərimanov müşayiətçilərlə birlikdə qatardan yerə düşür və vağzalı tərk edir. Məhəmmədəmin isə yola davam edir.

*Tamaşanın sonunda məktəbli oxucular tədbir iştirakçılarının alqışları ilə səhnədən ayrılırlar.*

**I Aparıcı**:1947 - ci ildən Ankarada yaşayan M. Ə. Rəsulzadə ömrünün axırına kimi Azərbaycanın istiqlalı və azadlığı uğrunda mübarizə aparmışdır. Hətta ölüm onu haqlayanda belə üç dəfə "Azərbaycan" – deyərək əbədiyyətə qovuşmuşdur.

**II Aparıcı:** Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 ildən çox çəkdi. Bu rejim özünün bütün varlığı ərzində Şərqdə ilk demokratik respublikanın bayrağını ucaldan qüdrətli soydaşlarımızla, onların haqq işinin davamçıları ilə mübarizə apardı. Lakin xalqın qəlbində yaşayan azadlıq atəşini söndürməyə

müvəffəq olmadı. Xalq özünün istiqlal arzularını nəsildən - nəslə ötürdü. Nəhayət bir kərə yüksələn bayraq 1991 - ci ildə yenidən başlarımız üstə yerini tutdu və Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Çünki müstəqillik milli ruhun, milli duyğuların, milli düşüncəyə çevrilərək bir xalqın istiqbal adına bütün xeyirlərə qovuşma ümidinin prinsipi idi.

**I Aparıcı**:Qısa bir dövr ərzində beynəlxalq münasibətlər sisteminə qoşulan Azərbaycan Respublikası dünyanın 130 - dan çox dövləti tərəfindən tanınmış, Birləşmiş Millətlər Təşkilatında, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, İslam Konfransı Təşkilatında, Qara dəniz İqtisadi Əməkdaşlıq Assambleyasında, İqtisadi Əməkdaşlıq Təşkilatında öz yerini möhkəmlətmişdir.Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən əziz, ən qiymətli sərvətimizdir, eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan azadlıq idealları uğrunda mübarizənin məntiqi nəticəsidir. Ümummillilider Heydər Əliyevin sözləri ilə desək, “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və qarşımızda duran vəzifə dövlət müstəqilliyimizi qorumaqdan, əbədi etməkdən ibarətdir”. Bəli, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onu qoruyub saxlamaq, dönməz və əbədi etmək bundan da çətindir.

**Əsrlərdən gələn milli duyğunun, milli qeyrətin – azadlıq ruhunun zamanları aşıb zirvələşdiyi, coşub – daşdığı məqam – Cümhuriyyətimiz!..**

**Varlıq tariximizin silinməz yaddaş lövhəsi, millətin böyük salnaməsi, müstəqilliyimizin anası – Cümhuriyyətimiz!..**

**II Aparıcı:** Bu gün hər bir azərbaycanlı sevinir və qürur hissi keçirir ki, vaxtilə M. Ə. Rəsulzadənin Azərbaycanın

gəncliyinə etdiyi vəsiyyət həqiqətə çevrilib. M. Ə. Rəsulzadə deyirdi:

**Ey Gənclik! Ey Türk gəncliyi!**
**Sənin öhdəndə böyük bir vəzifə var!**

**Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Və onu min müşkülatla yüksəldərək dedi: Bir kərə yüksələn bayraq bir daha enməz! Sən onun ümidini qırmayacaq, bu gün parlament binası üzərində azərilərin yanıq ürəklərinə enmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda şəhid olacaqsan!"**

**I Aparıcı**: Bəli, Azərbaycan xalqının taleyinin bir parçası olan Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına bu gün ani bir nəzər salmaqla biz Vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşdük. Sözsüz ki, bu sədaqət, bu sevgi ilə M. Ə. Rəsulzadə Azərbaycan xalqının məhəbbətini qazanmış və qəlblərdə əbədi məskən salmışdır. Bu gün bütün Azərbaycan xalqı əzəmətli bayrağımızın qarantı olan Heydər Əliyev məktəbinin davamçısı İlham Əliyevin rəhbərliyi altında xoşbəxt gələcəyə doğru inamlı addımlar atır.

*Balaca oxucularımız səhnəyə çıxıb aşağıdakı şeiri söyləyirlər.*

**Qəriblikdə qalanlar**
**Vətəndən uzaqlarda**
**İstiqlal həsrətilə**
**"Gözəlim" söylədilər**
**"Cümhuriyyət" sözünə,**

**Onu vəsf eylədilər,**
**Qəlblərində yaşadıb**
**Daim ümid etdilər.**
**Zamanı yetişincə**
**Azəri - türk övladı**
**Nəfəsilə ruh verib**
**Cana gətirdi onu.**

**"Gözəlim Cümhuriyyət"**
**Od püskürən, od saçan**
**Bir diyarda doğuldu.**
**Dünya xəritəsinə**
**"Azərbaycan" adında**
**Dövlət möhürü vurdu!**

**Azərbaycan ...** Üzərindən sevənlərinin duaları kəsilməyən sevda məkanım ...

Torpağına rəhmət yağışı, hikmət şehi düşən canım məmləkətim ...

Qədim – cavan – gələcəkli, dünya xəritəsinin qiymətli daşı - əvəzsiz Diyarım ...

Ruhumun sədası, qəlbimin sirdaşı, dilimin şirin ana sözü – Azərbaycan!

Sən heç vaxt kölgəsi itməyəcək, varlığı, əzəməti getməyəcək bir kainat möcüzəsisən.

Xəbis düşmən səndən bir parçanı – Qarabağını qoparıb almaq istədi.

Gözləri kor oldu – görmədilər kəsmək istədikcə, kökündən

Bitən fidanı görmədilər – kökü anaya bağlı telləri.

Qarabağım, qərib durma, qərib olma, Azərbaycanın sinəsindəsən-

Oradan kim qoparıb kəsə bilər səni ...

Dünya durduqca bütöv qalaqcaq – sevilmiş, sevilən, seviləcək ərlər yurdu, mərdlər diyarı- Azərbaycan!..

Biz Azərbaycan xalqının taleyinin bir parçası olan M. Ə. Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına bu gün ani bir nəzər salmaqla vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşdük.

Yüksələn bir mədəniyyətin əsasında Ümummilli lider Heydər Əliyev kimi, böyük mütəfəkkir Məmməd Əmin Rəsulzadə kimi insanlar, istiqlalına qovuşmuş vətən və hürr düşüncənin tətbiqi dayanır. Bu dəyərlərə sahib olduqca millət mükəmməllik və professionallıq əldə etməyə başlayır. Çünki qabiliyyətləri genişləndirən, istedadlara yol açan, ən kiçik imkanları dəstəkləyən, bir sözlə, elmə və elm insanına dəyər verən bir xalq yer üstündəki zənginliklərini tarixi dəyərləri ilə birləşdirər.

Biz ölkəmizin, vətənimizin və insanlarımızın qiymətini bilməli, Azərbaycanımıza bir cənnət dəyəri verməliyik. Bu dəyəri verdikcə millətimizin ruhundakı istiqlal qığılcımları tarix boyu sönməyəcək, əsrlərlə düşmənlərimizin gözlərini oyacaq və bizi sevənlərin qəlblərinə işıq saçacaqdır.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

## Əsərləri

Əsərləri. - Bakı : Qələm , 2013. - 464 s.

Bir Türk milliyyətçisinin Stalinə ixtilal xatirələri. - Bakı : Qanun, 2010. - 132 s.

Milli birlik : tarixi ədəbiyyat. - Bakı : Çıraq, 2009. - 176 s.

## Dövrü mətbuatda

6 ay inqilab // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 20. - "Açıq söz" qəzetinin 29 avqust 1917-ci il tarixli 553-cü sayında dərc olunmuşdur.

Ağaoğlu Əhməd // 525-ci qəzet. - 2018. - 10 mart. - № 46. - S. 18-19.

Aşura // Füyuzat. - 2017. - № 4. - S. 60-62.

Azərbaycan davası // 525-ci qəzet. - 2018. - 26 may. - № 95. - S. 20. - 1954-cü ildə "Azərbaycan" aylıq kültür dərgisində çap olunmuşdur.

Azərbaycan Heyyəti-mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm Bəyanatı // 525-ci qəzet. - 2018. - 9 iyun. - № 104. - S. 20-21. - "Yeni məcmuə"nin 25 temmuz (iyul) 1918-ci il tarixli 54-cü sayında İstanbulda dərc edilmişdir.

Azərbaycan şairi Nizami : Nizami Gəncəvi - 870 // Ədəbiyyat qəzeti. - 2012. - 2 iyun. - № 20. - S. 1, 3.

Azərbaycanda fikir həyatı: bir ideoloji bəhsi // 525-ci qəzet. - 2018.- 14 iyul. - № 125. - S. 20-21. - "Yeni Qafqasiya"nın 1 nisan (aprel) 1927-ci il tarixli 13-cü sayında dərc edilmişdir.

Azəri gənclər birliyi yığıncağında M.Ə.Rəsulzadənin mühazirəsi: Qərbdə və Şərqdə milli məsələ : V mühazirə // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20. - Sıra Şərqindir ; Alacağımız dərs. - "Yeni qafqasiya"nın 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü sayında dərc edilmişdir.

Bakı kəndlərinin müqəddəratı // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 21. - "Açıq söz" qəzetinin 5 sentyabr 1917-ci il tarixli 559-cu nömrəsində dərc edilmişdir.

Bakı uyezdi haqqında üç nəzər // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 20-21. - "Açıq söz" qəzetinin 19 sentyabr 1917-ci il tarixli 569-cu sayında dərc edilmişdir.

Bəsirət (gözüaçıq, uzaqgörənlik) gərək! // 525-ci qəzet. - 2018. - 3 fevral. - № 22. - S. 14. - İlk dəfə "Bəsirət" qəzetinin 12 aprel 1914-cü il tarixli 1-ci sayında dərc edilmişdir.

Bəyani-təsəvvür fi xüsusi lisan // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – 82-86.

Bizim mövqeyi-nəzərdən Rusiyada cümhuriyyəti-ənam (xalq cümhuriyyəti) // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 20. - "Qardaş köməgi" məcmuəsinin may 1917-ci il tarixli 1-ci sayında dərc edilmişdir.

Bu nədir? // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20. - "Açıq söz" qəzetinin 5 iyul 1917-ci il tarixli 513-cü sayında dərc edilmişdir.

Bütün Azərbaycan əhalisinə // 525-ci qəzet. - 2018. - 1 dekabr. - № 213. - S. 20. - "Azərbaycan" qəzetinin 29 noyabr 1918-ci il tarixli 52-ci sayında dərc edilmişdir.

Cahan hərbinin təsiri ; Sıra Şərqindir ; Alacağımız dərs // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 20-21. - "Yeni Qafqasiya" dərgisinin 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü sayında və Rəsulzadə M.Ə. "Yeni Qafqasiya" yazıları (1923-1927) (Ankara : 2017. - S. 371-376.) kitabında dərc edilmişdir.

Camaət idarəsi // 525-ci qəzet. - 2018. - 20 yanvar. - № 12. - S. 20-21. - İlk dəfə "Açıq söz" 5, 13 aprel 1917-ci il tarixli 442, 449-cu saylarında dərc edilmişdir.

Cümhuriyyəti-ənam (Xalq Cümhuriyyəti) şüarı, Kadet firqəsi və müsəlmanlar // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 21. - İlk dəfə "Açıq söz" qəzetinin 31 mart 1917-ci il tarixli 438-ci sayında dərc edilmişdir.

Dil – ictimai mühüm bir amil // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.65-67.

Əksinqilab // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 20-21. - "Açıq söz" qəzetinin 30 avqust 1917-ci il tarixli 554-cü sayında dərc edilmişdir.

Federalizm və demokratizm // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 25 iyul 1917-ci il tarixli 528-ci sayında dərc edilmişdir.

Fitnələr haqqında // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20-21. - "Açıq söz" qəzetinin 30 iyun 1917-ci il tarixli 509-cu sayında dərc olunmuşdur.

Gürcü politikaçıları // 525-ci qəzet. - 2018. - 3 fevral. - № 22. - S. 15. - "Açıq söz" qəzetinin 6 sentyabr 1917-ci il tarixli 560-cı sayında dərc edilmişdir.

Hər könüldə sənin izin : Məhəmməd Əmin Rəsulzadənin sitatları // Ulduz. - 2022. - № 01(632). - S. 10-13.

Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfər) // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 20-21. - "İstiqlal" qəzetinin 31 mayıs 1919-cu il tarixli 17-ci sayında dərc edilmişdir.

Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfəri) // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 21. - "İstiqlal" qəzetinin 31 may 1919-cu il tarixli 17-ci sayında dərc edilmişdir.

Hürriyyət qarşısında // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 21. - İlk dəfə "Açıq söz" qəzetinin 7 mart 1917-ci il tarixli 420-ci sayında dərc edilmişdir.

İbrət günləri // Azərbaycan : qəzet. - 2018. - 4 mart. - № 50. - S. 6. - "İqbal", № 377, 5 iyun 1913.
İki "Leyli və Məcnun" : Nizami Gəncəvi - 870 // Ədəbiyyat qəzeti. - 2012. - 8 sentyabr. - № 33. - S. 3. - Məqalə ilk dəfə 1941-ci il 6 noyabr tarixində Buxarestdə dərc olunub.

İki baxış ortasında // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 21. - "Açıq söz" qəzetinin 27 mart 1927-ci il tarixli 440-cı sayında dərc edilmişdir.

İstanbulun ikinci fəthi : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 16 fevral. - № 32. - S. 20. - İlk dəfə "Yeni Qafqasiya" dərgisinin 15 oktyabr 1923-cü il tarixli 2-ci sayında dərc edilib.

İstiqlal // 525-ci qəzet. - 2018. - 19 may. - № 90. - S. 20-21. - "İstiqlal" qəzetinin 4 şubat (fevral) 1919-cu il tarixli 1-ci sayında dərc edilmişdir.

Kazan türkləri // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 20. - "Yeni Qafqasiya"nın 15 aprel 1926-cı il tarixli 11-ci sayında dərc edilmişdir.

Qurtuluş bayramı : Novruz - Yeni gün! // Füyuzat. - 2012. - № 2. - S. 36-37. - Məqalə ilk dəfə "Aşıq söz" dərgisinin 8 mart 1916-cı il tarixli 130-cu sayında dərc edilmişdir.

Lenin öldükdən sonra : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 21. - "Yeni Qafqasiya"nın 1 şubat (fevral) 1924-cu il tarixli 9-cu sayında dərc edilmişdir.

Mayıs duyğuları : şeir // Füyuzat. - 2012. - № 3. - S. 31.

Məclisi-müəssisan seçkiləri // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 20-21. - "Açıq söz" qəzetinin 26 noyabr 1917-ci il tarixli 613-cü sayında dərc edilmişdir.

Məclisi-Müəssisana hazırlaşalım // 525-ci qəzet. - 2018. - 20 yanvar. - № 12. - S. 20. - İlk dəfə "Aşıq söz" qəzetinin 16 mart 1917-ci il tarixli 425-ci sayında dərc edilmişdir.

Məsuliyyətimiz artdı // 525-ci qəzet. - 2019. - 18 may. - №

77. - S. 20-21. - "Azərbaycan" qəzetinin 29 avqust 1919-cu il tarixli 263-cü sayında dərc edilmişdir.

Millət məfhumu və istiqlal // 525-ci qəzet. - 2018. - 14 aprel. - № 66. - S. 20. - "Yeni Qafqasiya" dərgisində 1927-ci ildə 27 mayısda 17-ci sayda dərc edilib.

Millətlər qurultayı // 525-ci qəzet. - 2018. - 10 fevral. - № 27. - S. 28. - "Açıq söz" qəzetinin 10 sentyabr 1917-ci il tarixli 563-cü sayında dərc edilmişdir.

Millətlərin hüququ və hərəkətləri // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 20. - İlk dəfə "Aşıq söz" qəzetinin 8 dekabr 1917-ci il tarixli 624-cü nömrəsində dərc edilmişdir.

Milli Azərbaycan hərəkatının xarakteri // Füyuzat. - 2012. - № 3. - S. 37-39.

Milli dirilik // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.61-65.

Milli hal və hissiyyat // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 21. - "Açıq söz" qəzetinin 24 dekabr 1917-ci il tarixli 636-cı sayında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Rəsulzadə Məhəmməd Əmin bəyin mühazirələri // 525-ci qəzet. - 2018. - 21 iyul. - № 130. - S. 20-21. - "Yeni Qafqasiya"nın 16 kanuni əvvəl (dekabr) 1926-cı il tarixli 5-6-cı saylarında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi mohzərində (yığıncağında) M.Ə.Rəsulzadənin mühazirələri : IV mühazirə // 525-ci

qəzet. - 2018. - 22 sentyabr. - № 164. - S. 21. - Cənub Slavlarında milliyyətçilik ; Lehistan

Milliyyət məbdəninin (prinsipinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi yığıncağında M.Ə.Rəsulzadənin mühazirələri : V mühazirə // 525-ci qəzet. - 2018. - 29 sentyabr. - № 169. - S. 20. - "Yeni Qafqasiya"nın 1 nisan (aprel) 1927-ci il tarixli 13-cü sayında dərc edilmişdir.

Moskva şurası // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 21. - "Açıq söz" 13 avqust 1917-ci il tarixli 539-cu sayında dərc edilmişdir.

Müasir İranın həqiqi çöhrəsi // 525-ci qəzet. - 2018. - 17 noyabr. - № 203. - S. 20-21. - "Yeni Qafqasiya"nın dekabr 1924-cü il tarixli 5-ci sayında dərc edilmişdir.

Nə böyük bayram // 525-ci qəzet. - 2018.- 2 iyun. - № 99. - S. 21. - "Azərbaycan" qəzetinin 28 mayıs 1919-cu il tarixli 190-cı sayında dərc edilmişdir.

Ordumuz zəfərdə : 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin zəfərlər tarixindən səhifələr // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 20. - "Azərbaycan" qəzetinin 6 nisan 1920-ci il tarixli 68-ci sayında dərc edilmişdir.

Sosializm həqqində // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 21. - "Açıq söz" qəzetinin 25 iyun 1917-ci il tarixli 506-cı sayında dərc edilimişdir.

Tutacağımız yol // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.60-61.

Türk Harsının rus kommunizminə müqaviməti // 525-ci

qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 20. - "Yeni Qafqasiya"nın 1 şubat (fevral) 1927-ci il tarixli 8-9-cu saylarında dərc edilmişdir.

Türkiyə məəsləsi // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 21. - "İstiqlal" qəzetinin 17 şubat (fevral) 1920-ci il tarixli 6-cı sayında dərc edilmişdir.

Türkiyə-İran dostluğu : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 21. - "Yeni Qafqasiya"nın 15 may 1926-cı il tarixli 13-cü sayında dərc edilmişdir.

Ümumrusiya müsəlman syezdi : xatirələr və təəssürat // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 21, 23 may 1917-ci l tarixli 478, 479-cu saylarında dərc edilmişdir.

Vətən mühərriri Bakıda // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20-21. - "Yeni Qafqasiya"nın 15 may 1924-cü il tarixli 16-cı sayında dərc edilmişdir.

Yeni lisançılar və türkçülər // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S. 68-74.

## Haqqında

**Bayandur İ.** Qana bələnmiş tarix. - Bakı : Qanun, 2007. - 358 s.

**Elçin.** Seçilmiş əsərləri : 10 cilddə. VIII cild. - Bakı : Çinar-çap, 2005. - 551 s.

**Qurban T**. Dirilik gəmisi : tarixi dram. – B.: Şirvannəşr, 2008. – 148 s.

**Qurban T.** Dönməzlik . - Bakı : Qanun, 2011. - 144 s.

Rəsulzadə Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu (31 yanvar 1884 , Bakı, Novxanı – 6 mart 1955, Türkiyə) // Azərbaycan Xalq Cümhuriyyəti Respublkiası Ensiklopediyası. 2 cilddə. II cild. – B.: Lider, 2005. - S.301-305.

**Yaqublu N.** Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. – B.: Ol MMC, 2013. – 506 s.

## Dövrü mətbuatda

M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 dekabr 2023-cü il) // Xalq qəzeti. – 2023. – 31 dekabr. - №288. – S. 2

**Abbaslı T**. Vətənə tən Vətəndaş : İlk Cümhuriyyət növrağımızın, bir daha enməyəsi bayrağımızın banisi - Məhəmməd Əmin Rəsulzadə // Mədəniyyət. - 2014. - 31 yanvar. - № 8. - S. 10.

**Abdullayev Ç.** Almaniyada Azərbaycan legionu // Mədəni - Maarif. - 2006. - № 1. - S.32-35.

Akademik Milli Dram Teatrında Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçiriləcək // Kaspi. - 2014. - 31 yanvar. - № 17. - S. 13.

**Allahmanlı M.** Qəhrəmanlıq tariximizə bir nəzər : Qaçaq Nəbi // Azərbaycan məktəbi. - 2012. - № 2. - S. 82-89.

**Anar.** Bir kərə yüksələn bayraq : Nəcibə Bağırzadənin "Uzaqdakı yaxınlar" kitabına ön söz // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 3.

**Babaşlı M**. "Nicat" cəmiyyətinin mədəni-maarifçilik fəaliyyəti // Füyuzat. - 2016. - № 1. - S. 16-20.

Bir kərə yüksələn bayraq bir daha enməz : Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 26 may. - S.1.

Bir yüzillikdə iki müstəqillik şirinliyi : Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı tarixçi Maarif Teymurla müsahibə // Azərbaycan müəllimi. - 2006. - 26 may. - S.2.

**Cəfərov N**. Ümid edəlim ki : "Öylə olmaz ki, bu gün hər millətin öz kökü üstə bitməsi tərəfdarı olanlar...bizləri eşitməyə qadir olmasın"... // Ədəbiyyat qəzeti. - 2017. - 20 yanvar. - № 2. - S. 10.

**Dadaşov A**. Azərbaycançılıq fədaisi : Məhəmməd Əmin Rəsulzadə // Füyuzat. - 2016. - № 1. - S. 42-48.

**Dünyaminqızı Q.** Varislik məsuliyyətni layiqincə daşıyaq : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 18-20.

**Dünyaminqızı Q**. Amalına və əməlinə sadiq insan : Milli müstəqilliyimizin, istiqlalımızın bayraqdarı Məhəmməd Əmin Rəsulzadənin anadan olmasından 129 il ötür // Kaspi. - 2013. - 31 yanvar. - № 17. - S. 12.

**Dünyaminqızı Q**. Bir ailənin faciəsi : Məhəmməd Əmin Rəsulzadənin ailə faciəsi // İşıq. - 2017. - № 3. - S. 44-47.

**Elzar**. Hürriyyətin Tarixi : Məmməd Əmin Rəsulzadə haqqında // Şəkər villası. - 2006. - 23 may. - S.3.

**Əhməd D**. Məhəmməd Əmin Rəsulzadənin bir fotoşəkli... // Mədəniyyət : jurnal. - 2020. - № Mart/Aprel. - S. 18-19.

**Əhməd D**. Parlamentin yadigarları // Füyuzat. - 2021. - № 3(119). - S. 38-43.

**Əhmədova F.** 1918. Mart soyqırımı : Azərbaycanlıların soyqırımı: tarix nə deyir? // Füyuzat. - 2011. - N 2. - S. 8-12.

**Əhmədova F**. Azərbaycan dövlətçilik tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Əliyev M.** Bu barədə ilk dəfə : Məhəmməd Əmin Rəsulzadə // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 13. - Məqalə ilk dəfə "Odlar yurdu" qəzetinin sentyabr 1988-ci il tarixli 17-ci sayında dərc edilmişdir.

**Əzimova A.** Məhəmməd Əmin Rəsulzadə maarif və mədəniyyət haqqında : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 21-22.

**Fərəcov S**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illiyinə həsr olunmuş tədbir // Mədəniyyət. - 2014. - 29 yanvar. - № 7. - S. 2.

**Fərhadov Ə**. M.Ə.Rəsulzadənin yaradıcılığında dini-siyasi məsələlər // Füyuzat. - 2015. - № 1. - S. 12- 17.

**Hacı S**. Məhəmməd Əmin Rəsulzadəyə görə Nizami Gəncəvinin milli və ədəbi kimliyi // Ədəbiyyat qəzeti. - 2017. - 29 aprel. - № 15. - S. 24-25.

Həyatını müstəqilliyimiz yolunda qurban verib : Məhəmməd Əmin Rəsulzadə haqqında // Tumurcuq. - 2014. - № 1. – S. 3.

**Həzi B**. Bir eşq romanı kimi : professor Qulu Məhərrəmlinin Məmməd Əmin Rəsulzadə əsəri haqqında düşüncələrim // Ədəbiyyat qəzeti. - 2023. - 23 dekabr. - № 50. - S. 21.

**Xalidoğlu S**. M.Ə.Rəsulzadənin I Dünya müharibəsi illərindəki mətbu fəaliyyəti // Kaspi. - 2014. - 30 yanvar . - № 16. - S. 23.

İstiqlalımızı qorumağa çağırış : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 28 yanvar. - № 17. - S. 4.

**Qaraca B**. Qarabağ general - qubernatorluğunun yaradılması : Xosrov bəy Sultanov haqqında // Azərbaycan. - 2014. - 29 yanvar. - № 18. - S. 7.

**Qəhrəmanov T**. Azərbaycan Milli qurtuluş hərəkatının böyük ideoloqu : Məhəmməd Əmin Rəsulzadə - 125 // Mədəniyyət. - 2009. - 31 yanvar. - S. 6.

**Quliyev V**. Məhəmməd Əmin Rəsulzadə "Qafqaz dağlıları" jurnalının səhifələrində // 525-ci qəzet. - 2021. - 5 iyun. - № 98. - S. 16-17.

**Quluzadə M**. Görkəmli siyasi və ictimai xadim : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Qurbanov A.** Ucalan bayraq enməyəcək : Azərbaycan Xalq Cümhuriyyəti - 90 // Füyuzat. - 2008. - № 3(41). - S. 26-30.

M.Ə. Rəsulzadənin Nizami Gəncəvidən tərcümələri // Ədəbiyyat qəzeti. - 2022. - 29 yanvar. - № 3. - S. 26. - Söz ; Sözçü ; İxtiyar qadın ilə Sultan Səncər ; Tuğlacı ixtiyar. altıncı məqalə.

M.Ə.Rəsulzadə : İnqilab nəğmələri, yaxud həbsxana şeirləri // Ədəbiyyat qəzeti. - 2022. - 11 iyun. - № 21. - S. 13.

**Manafova S.** Azərbaycanda müasir təhsilin təməlini qoyanlar // Psixoloq. - 2012. - 25 iyul. - № 7. - S. 6.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlanıb // Mədəniyyət. - 2014. - 22 yanvar. - № 5. - S. 3.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilmişdir // Azərbaycan : qəzet. - 2014. - 28 yanvar. - № 17. - S. 5.

Milli dəyərlərimizə sədaqətlə : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 9.

**Musayeva İ**. Məmməd Əmin Rəsulzadə Nizami Gəncəvi haqqında // Qobustan. - 2021. - № 2. - S. 7-14.

**Mustafa N**. Azərbaycan Xalq Cümhuriyyəti - dövlətçilik tariximizin parlaq səhifəsi // Xalq qəzeti. - 2022. - 26 may. - № 110. - S. 7.

**Mükərrəmoğlu M**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş sərgi belə adlanır // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

Müqəddəs gün - 15 sentyabr zəfəri mühacir qələmində // Ulduz. - 2021. - N 9(628). - S. 73-76.

Novxanıda Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Özcan Ö**. Mehmet Emin Resulzadenin Almanya ile ilişkiləri // Ədəbiyyat qəzeti. - 2020. - 12 iyun. - № 17. - S. 30-31.

Rais Rəsulzadə **:** "Bu adın arxasında böyük bir xalq dayanır" : "Varislər"in bugünkü qonağı Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri, xatirəsi, fəaliyyəti hər zaman hörmətlə anılan, bu gün başımız üstə dalğalanan üçrəngli bayrağı ilk dəfə qaldıran, üzünü bütün dünyaya tutub Azərbaycan səslənən böyük Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rais Rəsulzadədir / söhbəti yazdı Ə.Qiyas // Ədəbiyyat qəzeti. - 2020. - 19 sentyabr. - № 40/41. - S. 2-4.

Rüstəmbəyli Rəfi (bəy). 27 aprel 1920-ci il xatirəsi // Füyuzat. - 2011. - № 6. - S. 8-12.

**Rüstəmli A**. M.Ə.Rəsulzadə və C.Cabbarlı: Qovuşan və

ayrılan yollar // Ədəbiyyat qəzeti. - 2010. - 29 yanvar. - N 4. - S. 6.

**Sultanlı V.** Məhəmməd Əmin Rəsulzadənin ədəbi düşüncələri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 14-17.

**Sultanova M**. Qədim türk dünyasının 105 yaşlı ocağı : Mehmet Öz: 1912-ci ildən bu günə qədər baxdıqda türk Oraqlarında nəhəng şəxsiyyətləri görürük. Azərbaycandan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə türkçülük cərəyanının qurucularındandır // Mədəniyyət. - 2017. - 7 iyul. - № 52. - S. 12.

**Süleymanlı M**. M.Ə.Rəsulzadənin mədəniyyət, millət və dövlət anlayışlarına kulturoloji baxışı // Füyuzat. - 2022. - № 1(123). - S. 12-19. ; № 2(124). - S. 12-15. ; № 3(125). - S. 24-29.

**Süleymanlı M**. Mirzə Bala Məhəmmədzadə və onun "Qurtuluş" məcmuəsindəki yazıları // Füyuzat. - 2016. - № 6. - S. 22-26. - məqalənin sonrakı sayı 2017-ci ildə yazılıb.

**Şükürlü M**. Rəsulzadə borcumuz : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 22.

**Tağısoy G**. Fədakar aydınlarımız millətin istiqlalı və istiqbalı yolunda : Türkçülük ideologiyasının yaranması // Mədəniyyət.az. - 2016. - № 1. - S. 76-78.

**Tahirli A**. Məhəmməd Əli Rəsulzadə: "Gəncəli şair, heç bir mübaliğəyə meydan verməmək üzrə ancaq və ancaq türk olmuşdur" : "Azərbaycan yurd bilgisi"nin bir məqaləsi

haqqında // Ədəbiyyat qəzeti. - 2021. - 9 oktyabr. - № 40. - S. 17.

Tanıdım sizi... : M.Ə. Rəsulzadə və İosif Stalin // El. - 2011. - N 5. - S. 64-67.

Tarixdən boylanan gün - 28 may // Mədəniyyət. - 2008. - 28 may. - S. 1.

Tarixi yaradanlar: Məmməd Əmin Rəsulzadə // Xalq qəzeti. - 2023. - 15 noyabr. - № 248. - S. 9.

**Tohidi-Rüstəmova S**. İki dost, iki tale : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 30 yanvar. - № 19. - S. 6.

**Turan A.** Məhəmməd Əmin Rəsulzadənin istiqlal şüarı - "Bir kərə yüksələn bayraq bir daha enməz" : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Turan A**. Rəsulzadə bizim üçün Vətən mehrabı qurdu // Ədəbiyyat qəzeti. - 2020. - 23 may. - № 15. - S. 14.

**Yaqublu N**. Biz hələ Rəsulzadəni çox öyrənməliyik : Məhəmməd Əmin Rəsulzadənin tədqiqatçısı Nəsiman Yaqublu ilə söhbət / yazdı T. Məhərrəmova // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 8.

**Yaqublu N**. M.Ə. Rəsulzadə irsində Nizami yaradıcılığı : I məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 6 noyabr. - № 44. - S. 15.

**Yaqublu N**. M.Ə. Rəsulzadənin Nizami Gəncəvi araşdırmaları : II məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 13 noyabr. - № 45. - S. 13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabı haqqında : III məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 20 noyabr. - № 46. - S. 12-13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi araşdırmalarında yeniliklər : IV məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 4 dekabr. - № 47/48. - S. 20-21.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi haqqında unudulmuş məqalələri : V məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 18 dekabr. - № 50. - S. 23.

**Zauroğlu M**. Gəncə üsyanı // Füyuzat. - 2020. - № 3(113). - S. 26-33.

**İstiqlal mücadiləmizin parlaq siması**
**Məhəmməd Əmin Rəsulzadə**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**